**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# "Dövlət maliyyə nəzarəti: problemlər və prespektivlər" mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**ƏHMƏDOV İSA ELDAR**

**BAKI – 2019-cu il**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**
**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh**

______________________

**“___” ___________ 20__-ci il**

# “Dövlət maliyyə nəzarəti: problemlər və prespektivlər” mövzusunda

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı: 060403-Maliyyə**

**İxtisaslaşma: Maliyyə nəzarəti və audit**

**Qrup: 630**

**Magistrant**
**Əhmədov İsa Eldar**

____________________

**Elmi rəhbər**
**i.e.n.,dos. Qarayev A.İ.**

____________________

**Proqram rəhbəri**
**i.e.n.,dos.Seydullayev İ.Z.**

____________________

**Kafedra müdiri**
**i.e.d.,prof. Kəlbiyev Y.A.**

____________________

**BAKI – 2019 –cu il**

**Summary**

**The relevance of the research topic: Though the numerous efforts have been realized targeting to establish progressive and functional government financial control system in the republic, there are still many problems and shortcomings in this area.**

**Purpose and task of the research: The main purpose of the research is to study theoretical and practical problems of the government financial control in the republic, to prepare relevant proposals and recommendations for its improvement.**

**The research envisions to find the solutions of the below-mentioned tasks in compliance with the purpose of the study:**

- **to study the role and status of the government control in the economy in Azerbaijan at the modern stage;**
- **to determine the main problems and shortcomings of the government financial control in the country;**

**Research methods applied: The research uses such methods as systematic economic analysis, comparative analysis, generalization, logical approach.**

**Research information base: Official data, reports and other documents of the Ministry of Finance, Ministry of Taxes, the Chamber of Accounts, State Statistical Committee of the Republic of Azerbaijan.**

**Result of the research: Lack of scientific background on establishment and operation of the government financial control system, absence of the central information database essential for the controlling, as well as paying not enough attention to the issues related to financial control are among the reasons decreasing the efficiency of the government financial control.**

**Scientific-practical significance of the research results: Research conclusions and proposals can be used in improvement of the government financial control system.**

**Key words: financial control, government financial control system, efficiency of the government financial control.**

# M Ü N D Ə R İ C A T


| | | |
|---|---|---|
| | **GİRİŞ.......................................................** | **5** |
| **I fəsil.** | **MALİYYƏ NƏZARƏTİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI ..........** | **9** |
| 1.1. | Maliyyə nəzarətinin məzmunu, əhəmiyyəti və müasir iqtisadiyyatda rolu .......... | 9 |
| 1.2. | Maliyyə nəzarətinin növləri və formaları ........................................ | 19 |
| 1.3. | Dövlət maliyyə nəzarəti sisteminin fəaliyyətinin müqayisəli təhlili: yerli və beynəlxalq təcrübə ........................................ | 30 |
| **II fəsil.** | **RESPUBLİKADA MÜASİR İQTİSADİ ŞƏRAİTDƏ DÖVLƏT MALİYYƏ NƏZARƏTİ VƏ ONUN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ ...............................** | **38** |
| 2.1. | Büdcə vəsaitlərinə dövlət maliyyə nəzarətinin təşkili xüsusiyyətləri və müasir vəziyyəti ........................................ | 38 |
| 2.2. | Respublikada vergi nəzarətinin təşkili və müasir reallıqlar ................................. | 46 |
| 2.3. | Dövlət maliyyə nəzarətinin səmərəliliyinin qiymətləndirilməsi ........................... | 54 |
| **III fəsil.** | **DÖVLƏT MALİYYƏ NƏZARƏTİ SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ VƏ EFFEKTİVLİYİNİN ARTIRILMASI .......** | **60** |
| 3.1. | Azərbaycanda dövlət maliyyə nəzarətinin əsas problemləri və çatışmazlıqları .... | 60 |
| 3.2. | Müasir iqtisadi şəraitdə dövlət maliyyə nəzarətinin təkmilləşdirilməsi istiqamətləri ........................................ | 66 |
| | **NƏTİCƏ VƏ TƏKLİFLƏR ........................................** | **71** |
| | **İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT........................................** | **79** |
| | Cədvəllərin siyahısı ........................................ | 82 |
| | Şəkillərin siyahısı ........................................ | 83 |

# GİRİŞ

**Mövzunun aktuallığı.** Maliyyə nəzarəti dövlət idarəetməsinin mühüm bir funksiyası olmaqla, büdcə və vergi siyasətinin ugurla reallaşdırılmasına, qanunculuğa əməl olunmasına xidmət edir, dövlətin maliyyə təhlükəsizliyinin təmin olunması və möhkəmləndirilməsinə istiqamətlənir.

Maliyyə nəzarətinin zəruriliyini maliyyənin mahiyyəti şərtləndirir, hansı ki, iqtisadi proseslərdə birbaşa və əks əlaqələrin səmərəli sistemini təmin edir, eləcə də istehsal və bölüşdürücü münasibətlərə təsir mexanizmini təmsil edir.

Müxtəlif ölkələrin inkişaf tarixi sübut edir ki, məhsuldar qüvvələrin və istehsal münasibətlərinin inkişafı ilə dövlət maliyyə nəzarətinin rolu obyektiv olaraq güclənir. Bu proses hazırda respublikamızda da müşahidə olunur.

Son dövrlərdə respublikada mütərəqqi və işlək dövlət maliyyə nəzarəti sisteminin formalaşdırılması istiqamətində xeyli işlər görülsədə, bu sahədə hələ də bir çox problem və çatışmazlıqlar qalmaqdadır.

Etiraf etmək lazımdır ki, ölkədəki mövcud maliyyə nəzarəti sisteminin səmərəliliyi, nəticəliliyi hələki qənaətbəxş səviyyədə deyil və bu da onun yenidən qurulmasını, təkmilləşdirilməsini zəruri edir.

Dövlət maliyyə nəzarətinin səmərəliliyini azaldan səbəblərə dövlət maliyyə nəzarəti sisteminin formalaşması və fəaliyyətinin elmi əsaslarının yaradılmamasını, nəzarətin keçirilməsi üçün vacib olan vahid informasiya bazasının formalaşdırılmamasını, eləcə də maliyyə nəzarətinin təşkili məsələlərinə yetərincə diqqət ayrılmamasını aid edirlər. Bu baxımdan maliyyə nəzarətinin əsas problemlərinin həlli üçün qısa müddətdə hüquqi, təşkilatı və metodoloji xarakterli tədbirlər kompleksinin reallaşdırılması məqsədəmüvafiq hesab edilir.

Beləliklə, bütün bu qeyd olunanlar “Dövlət maliyyə nəzarəti: problemlər və perspektivlər” mövzusundakı tədqiqat işinin aktuallığını, elmi araşdrılmasının zəruriliyini göstərir.

**Problemin öyrənilmə səviyyəsi.** Maliyyə nəzarətinin, o cümlədən dövlət maliyyə nəzarətinin məzmunu, formaları və növləri, dövlətin iqtisadi həyatındakı rolu, problemləri, inkişaf istiqamətləri,eləcə də bir çox digər məsələlər uzun illər xarici və yerli müəlliflərin tədqiqat obyekti olaraq onların əsərlərində ətraflı işıqlandırılmışdır.

Qeyd etdiyimiz bu məsələlərə Ə.C.Muradov, Ə.Ə.Ələkbərov, V.Novruzov, A.F.Musayev, B.A.Xankişiyev, A.M.Kərimov, M.S.Şidlovskaya, E.Y.Qraçeva, Y.A. Kroxina, V.M. Rodionova, N.İ.Ximiçeva, V.İ. Şleynikov, S.V. Stepaşin və başqaları əsərlərində genis yer vermişlər.

**Tədqiqat işinin məqsəd və vəzifələri.** Tədqiqat işinin məqsədini respublikamızda dövlət maliyyə nəzarətinin nəzəri və praktiki problemlərının öyrənilməsi, hazırki mərhələdə və perspektivdə ölkə iqtisadiyyatının davamlı inkişafına xidmət edən səmərəli və vahid dövlət maliyyə nəzarəti sisteminin formalaşdırılması üzrə müvafiq təklif , tövsiyyələrin hazırlanması təşkil edir.

Tədqiqatın məqsədinə müvafiq olaraq aşagıdakı vəzifələrin həlli nəzədə tutulmuşdur:

-maliyyə nəzarətinin məzmunu, əhəmiyyəti və müasir iqtisadiyyatdakı rolunu müəyyənləşdirmək;

- maliyyə nəzarətinin müxtəlif təsnifat əlamətlərinə əsasən forma və növlərini müəyyənləşdirmək;

-yerli və beynəlxalq təcrübə əsasında dövlət maliyyə nəzarəti sisteminin fəaliyyətinin müqayisəli təhlilini aparmaq;

- müasir mərhələdə Azərbaycanda büdcə-vergi nəzarətinin vəziyyətini araşdırmaq;

-respublikada dövlət maliyyə nəzarətinin başlıca problemləri və çatışmazlıqlarını müəyyən etmək;

-müasir iqtisadi şəraitdə ölkənin dovlət maliyyə nəzarəti sisteminin təkmılləşdirilməsi istiqamətlərini müəyyən etmək.

Tədqiqatın predmetini dövlət maliyyə nəzarətinin keçirilməsi zamanı yaranan təşkilati-iqtisadi munasibətlər təşkil edir.

Tədqiqatın obyektini isə respublikanın mövcud dövlət maliyyə nəzarəti sistemi təşkil edir.

Tədqiqat işinın nəzəri-metodoloji əsaslarını dövlət maliyyəsi və maliyyə nəzarəti üzrə yerli və xarici alimlərin, tədqiqatçıların əsərlərindəki elmi müddəalar, fikirlər, yanaşmalar və s. təşkil edir.

Tədqiqat işinin yerinə yetirilməsi zamanı sistemli iqtisadi təhlil, müqayisəli təhlil, ümumiləşdirmə, məntiqi yanaşma kimi metodlardan istifdə olunmuşdur. Eyni zamanda tədqiqat prosesində V.Burseva, S.Şoxin, M.Melnik və digərləri tərəfindən işlənib hazırlanan effektivliyin qiymətləndirilməsi metodundan da istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazasını** AR Maliyyə Nazirliyinin, Vergilər Nazirliyinin, AR Hesablama Palatasının, Dövlət Statıstika Komitəsinin rəsmi məlumatları, hesabatları və s. təşkil edir.

**Tədqiqatın normativ bazasını isə** AR-nın müvafiq qanunları, AR Prezidentinin fərman və sərəncamları, Nazirlər Kabinetinin qərarları və digər aktlar təşkil edir.

**Nəticələrin elmi-praktiki əhəmiyyəti.**

-maliyyə nəzarətinin, eləcə də dövlət maliyyə nəzarətinin məzmunu dəqiqləşdirilmiş, iqtisadiyyatın idarə edilməsindəki rolu və əhəmiyyəti müəyyən edilmisdir;

-inkişaf etmiş ölkələrdə dövlət maliyyə nəzarətinin təşkili və fəaliyyəti araşdırılmış, xarici təcrübənın müsbət tərəflərinin respublikda tətbiqi imkanları nəzərdən keçirilmişdir;

-ölkənin dövlət malıyyə nəzarəti sisteminin hazırkı vəziyyəti öyrənilmiş, əsas problem və çatışmazlıqlar müəyyən edilmiş və onların həlli yolları, istiqamətləri göstərilmişdır;

-dövlət maliyyə nəzarətinin səmərəliliyinin qiymətləndirilməsi göstəriciləri müəyyən edilmiş və əsaslandırılmışdır;

-büdcə-vergi nəzarətinin təkmilləşdirilməsi, səmərəliliyinin artrılması üzrə təkliflər verilmişdir.

**Dissertasiya işinın həcmi və strukturu.** Dissetasiya işi xülasə, giriş, üç fəsil,səkkiz paraqraf, nəticə - təkliflər, ədəbiyyat sıyahısı, cədvəllər və şəkillər siyahısından ibarət olmaqla 83 səhifə həcmində yazılmışdır.

Giriş və xülasə hissəsində mövzunun aktuallığı, öyrənilmə səviyyasi, məqsəd və vəzifələri, tədqiqatın obyekt və predmeti, informasıya və normativ bazası, elmi yeniliyi göstərilmişdir.

Birinci fəsil "Maliyyə nəzarətinin nəzəri-metodolojı əsasları" adlanır. Bu fəsildə maliyyə nəzarətinin məzmunu, əhəmiyyəti, müasir iqtisadiyyatdakı rolu, forma və növləri kimi məsələlər tədqiq olunmuşdur. Eyni zamanda birinci fəsildə xarici ölkələrdə dövlət maliyyə nəzarəti sisteminin təşkili və fəaliyyəti öyrənilmiş, oxşar və fərqli cəhətlər müəyyən olunmuşdur.

"Respublikada müasir iqtisadi şəraitdə dövlət maliyyə nəzarəti və onun təşkili xüsusiyyətləri" adlanan ikinci fəsildə büdcə-vergi nəzarətinin təşkili və müasir vəziyyəti araşdırılmış, dövlət maliyyə nəzarətinin effektivliyinin qiymətləndirilməsindən bəhs olunmuşdur.

Dissertasiyanın sonuncu fəslində isə Azərbaycanda dövlət maliyyə nəzarətinin başlıca problem və çatışmazlıqlarının müəyyən edilməsinə çalışılaraq, onların həll edilməsinə və bütövlükdə dövlət maliyyə nəzarətinin təkmilləşdirilməsi istiqamətlərinə yer verilmişdir.

# FƏSİL 1. MALIYYƏ NƏZARƏTININ NƏZƏRI-METODOLOJI ƏSASLARI

## 1.1.Maliyyə nəzarətinin məzmunu, əhəmiyyəti və müasir iqtisadiyyatda rolu

Respublikanın müasir inkişaf mərhələsi iqtisadiyyatın idarə edilməsi sistemində dövlətin rolunun artırılması, iqtisadi sahədə qanun pozuntuları və korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi meylləri ilə səciyyələnir. Belə bir şəraitdə maliyyə nəzarətinin əhəmiyyəti və rolu obyektiv olaraq artır.

Maliyyə nəzarəti bir tərəfdən maliyyənin idarə edilməsinin yekun mərhələsi, digər tərəfdən isə maliyyənin effektiv idarə edilməsinin zəruri şərti kimi çıxış edir. O, bütövlükdə maliyyə sisteminin etibarlı fəaliyyətini, dövlətin maliyyə siyasətinin uğurla həyata keçirilməsini təmin etməklə, istənilən səviyyədə effektiv maliyyə idarəetməsinə xidmət edir və maliyyə təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.

Maliyyə nəzarəti dəyər ifadəsinə malikdir, ona görə də o, ictimai təkrar istehsalın bütün sferalarında həyata keçirilir və dövlətin, bələdiyyə qurumlarının, idarə, müəssisə və təşkilatların maliyyə fəaliyyətinin bütün mərhələlərini müşayiət edir.

Maliyyə nəzarəti əks əlaqələrin təşkili üsuludur və onun sayəsində dövlət və ya bələdiyyə orqanları qəbul edilmiş normativ hüquqi aktların yerinə yetirilməsi gedişi barədə məlumatlar alırlar (Kroxina Y.A., 2008: s.133).

Maliyyə nəzarət çoxtərəfli, kompleks, mürəkkəb bir iqtisadi kateqoriyadır və onun məzmunun araşdırılmasına ümumi anlayış olan "nəzarət"dən başlamaq daha məqsədəuyğundur. Nəzarət dövlət hakimiyyətinin əsas funksiyalarından biridir. O, fəaliyyətin qanuniliyi və məqsədəuyğunluğu üzərində nəzarəti, onun hüquqi, elmi, sosial-siyasi, təşkilati və texniki baxımdan qiymətləndirilməsini ehtiva edir (Baxrax D.N., 2011).

A.D.Şeremet və V.P.Suysa görə "nəzarət idarəetmənin mühüm funksiyasıdır. O, cəmiyyətin iqtisadi həyatında obyektiv bir haldır, maliyyə

vəsaitlərinin idarəedilməsi sahəsində - maliyyə münasibətlərinin tənzimlənməsi sisteminin vacib tərkib hissəsidir.

M.S.Şidlovskayanın fikrincə nəzarət idarəetmənin müstəqil funksiyası və bazar iqtisadiyyatının ən vacib elementlərindəndir (Şidlovskaya M.S., 2001: s.5).

Maliyyə nəzarəti isə sahəvi əlamətə görə ayrılan nəzarətin bir növü və ya qoludur.

Hazırda maliyyə hüququnda müəyyən anlayışlar və kateqoriyalar mövcuddur ki, onların izahı normativ qaydada müəyyən edilməmişdir və bu da onların hüquqi məzmunu və strukturu ilə bağlı müzakirələr üçün geniş zəmin yaradır. Bu cür kateqoriya və anlayışlardan biri də "maliyyə nəzarətidir".

Müasir iqtisadi ədəbiyyatlarda maliyyə nəzarəti anlayışının müxtəlif izahlarına, təfsirlərinə rast gəlinir. Məsələn, İ.D.Maskulyaka görə maliyyə nəzarəti dövlətin və yerlı özünü idarəetmə orqanlarınıın pul fondlarının təşkili, bölüşdürülməsi və istifadəsinin qanuniliyi və məqsəduygunluğunun yoxlanılması üzrə institutlar, alətlər və obyektlər sistemidir (Maskulyak I.D., 2003: s.593).

Oxşar yanaşma E.Y.Qraçevanın fikirlərində də özünü biruzə verir. Ona görə maliyyə nəzarəti vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi üçün səmərəli maliyyə siyasətinin həyata keçirilməsi məqsədilə dövlətin və bələdiyyələrin pul fondlarının formalasdırılması, bölüşdürülməsi və istifadəsi prosesində fəalıyyətlərin qanuniliyi üzərində səlahiyyətli dövlət orqanlarının və təşkilatlarının nəzarətidir (Qraçeva E., 2002: s.333).

Digər bir rus alimi Y.A.Kroxina isə haqlı olaraq qeyd edir ki, maliyyə nəzarəti maliyyənın nəzarət funksiyasının reallaşma formasıdır və maliyyə hüququ nöqteyi-nəzərindən dövlətin və bələdiyyələrin hüquqlarını qorumaq və təmin etmək məqsədini daşıyır (Kroxina Y.A., 2008: s.133).

Ayrı-ayrı müəlliflər (A.Q.İvasenko, V.D.Mixalev, Y.İ.Nikonova, V.M.Rodionova) bu fikri inkişaf etdirərək qeyd edirlər ki, maliyyə nəzarəti ictimai məhsulun və milli gəlirin istehsalı və bölüşdürülməsi prosesində maliyyənin nəzarət funksiyasının dövlət tərəfindən reallaşdırılmasıdır və müəssisə, birlik,

nazirlik və idarələrin fəaliyyətlərinin kəmiyyət və keyfiyyət göstəricilərinin yaxşılaşdırılmasına istiqamətlənir.

Professor N.İ.Ximiçeva maliyyə nəzarətini aşağıdakı kimi müəyyən edir: "maliyyə nəzarəti bütövlükdə ölkənin və onun regionlarının səmərəli sosial-iqtisadi inkişafı məqsədilə dövlətin və bələdiyyələrin pul fondlarının, eləcə də digər ictimai xarakterli pul fondlarının (maliyyə resurslarının) təşkili, bölüşdürülməsi və istifadəsi sahəsində fəalıyyətlərin qanuniliyi və məqsədəuygunluğu üzərində nəzarətdir" (Ximiçeva N.İ., 2008: s.139).

Maliyyə nəzarəti ilə bağlı I.M.Kulikov, T.F.Ryabova və digərilərinin də fikirləri xüsusi maraq doğurur. Onların fikrincə isə maliyyə nəzarəti özünəməxsus, spesifik təşkilati forma və metodlar tətbig etməklə maliyyə və təsərrüfat əməliyyatlarının yoxlanılması üzrə dövlət və qeyri-dövlət orqanlarının fəaliyyətlərinin məcmusudur (Kulikova İ.M, Ryabovoy T.F., 2011).

Beləliklə, maliyyə nəzarəti anlayışının yuxarıda göstərilən bütün izahlarının öz müsbət və mənfi tərəfləri vardır. Onlardan bəziləri maliyyə nəzarətinin obyekt və subyektlərinin olduqca dar dairəsini əhatə edir, bəziləri daha geniş olmaqla bütün mümkün elementlərin tam siyahısını ehtiva edir.

Qeyd olunanlar əsasında belə bir nəticəyə gəlmək olur ki, maliyyə nəzarəti:

- vahid dövlət nəzarəti mexanizminin tərkıb hissəsi və dövlətin maliyyə fəaliyyətinin bir növüdür;

- hüquqi normalarla tənzimləənən və səlahiyyətli orqanlar tərəfındən həyata keçirilən bir fəaliyyətdir;

- özünəməxsus, spesifik təşkilati forma və metodlar tətbıq etməklə maliyyə və təsərüfat əməliyyatlarının yoxlanılması üzrə fəaliyyətlərin məcmusudurr;

-mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş pul vəsaitləri fondlarının yaradılması, bölüşdürülməsi və istifadəsi zamanı yaranan maliyyə münasibətləri çərçivəsində həyata keçirilən nəzarətdir;

-dövlətin və bələdiyyələrin pul və maddi resurslarının idarə edilməsindəki səhv və sui-istifadə hallarının müəyyən edilməsinə, qarşısının alınmasına, maliyyə-

büdcə qanunvericiliyinin pozulması hallarının aşkarlanmasına, dövlətin maliyyə təhlükəsizliyinə təhdidlərin aradan qaldırılmasına yönələn fəaliyyətlərin məcmusudur;

-ölkənin effektiv sosial-iqtisadi inkişafının təmin edilməsi məqsədilə həyata keçirilən nəzarətdir.

Maliyyə nəzarətinin məzmunu onun məqsəd və vəzifələri, funksiyaları, elementləri ilə müəyyən edilir və bu elementlərin də məcmusu maliyyə nəzarəti sistemini təşkil edir (şəkil1.1.).

**Şəkil 1. Maliyyə nəzarətinin elementləri**




Mənbə: Şəkil 1. www.economics.studio internet resursunun məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Maliyyə nəzarəti sistemi bir-biri ilə qarşılıqlı əlaqədə olan və nəzarətin məqsədlərinə nail olmağa istiqamətlənən əsas (obyekt və subyekt, informasiya, hüquqi və normativ təminat, metod və prinsiplər) və köməkçi (nəzarətin maliyyə, texniki, kadr təminatı və s.) elementlərdən ibarətdir. Maliyyə nəzarətinin elementləri şəkil1.1.-də ətraflı şəkildə əks olunur.

**Şəkil 2. Maliyyə nəzarətinin vəzifələri**

Maliyyə nəzarətinin vəzifələri

↓

Dövlətin maliyyə təhlükəsizliyinin və təsərrüfat subyektlərinin maliyyə dayanıqlığının təmin edilməsi

↓

Dövlət büdcəsi qarşısında maliyyə öhdəliklərinin yerinə yetirilməsinin təmin edilməsi

↓

Maliyyə sisteminin bütün həlqələrində və sferalarında maliyyə resurslarının artımının, qanuni, effektiv və rasional istifadəsinin təmin edilməsi

↓

Təsərrüfat subyektlərinin maliyyə maraqlarının gözlənilməsi və fəliyyətlərinin nəticələrinə görə məsuliyyətlərinin artırılması

↓

Dövlətin maliyyə siyasətinin effektivliyinin yüksəldilməsi

Mənbə: Şəkil 2. www.economics.studio internet resursunun məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Maliyyə nəzarətinin məqsədi ictimai maliyyə fəaliyyətinin qanuniliyi və effektivliyinin təmin edilməsidir (Kroxina Y.A., 2008: s.132). Qeyd olunan məqsəddən irəli gələrək maliyyə nəzarətinin aşağıdakı vəzifələri müəyyən edilir (şəkil1.2.):

-mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş ictimai pul fondlarının formalaşdırılması zamanı dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsi;

-dövlət gəlirlərinin formalaşdırılması və rasional (səmərəli) istifadəsi üzərində lazımi nəzarətin təmin edilməsi;

-respublikannın nəzarət orqanlarının fəaliyyətlərinin əlaqələndirilməsi və koordinasiyasının artırılması;

-dövlət və bələdiyyələr, hüquqi və fiziki şəxslər qarşısında maliyyə öhdəliklərinin yerinə yetirilməsinin yoxlanılması;

-büdcə idarə və təşkilatlarına ayrılan büdcə vəsaitlərinin təyinatı üzrə istifadəsinin yoxlanılması;

-müəssisə, idarə və təşkılatların maliyyə fəaliyyətlərinin yoxlanılması;

-maliyyə hüququ subyektləri tərəfindən pul hesablaşmaları və kassa əməliyyatlarının mövcud qaydalara uyğun aparılmasının yoxlanılması;

-maliyyə sferasında qanun pozuntularının önlənməsi, aşkar edılməsi və aradan qaldırılması (Kroxina Y.A., 2008: s.133).

Maliyyə nəzarətinin obyekti xalq təsərrufatının bütün səviyyələrində və həlqələrində maliyyə resurslarının, o cümlədən pul fondlarının formalasdırılması və istifadə olunması zamanı yaranan pul – bölgu prosesləridir.

Bununla belə maliyyə nəzarətinin obyekti yalnız pul vəsaitlərinin formalasdırılması və istifadəsinin yoxlanılması ilə məhdudlaşmır. O, həmçinin maddi, əmək, təbii və digər resurslardan istifadəni də əhatə edir, çünki, müasir şəraitdə istehsal və bölğü prosesləri pul münasibətləri ilə müşayiət olunur.

Mənfəət, vergilər, gəlırlər, büdcədənkənar fondlara ödəmələr və sair göstəricilər isə bilavasitə maliyyə nəzarətinin predmeti kimi qəbul olunur. Iqtisadi ədəbiyyatlarda maliyyə nəzarətinin predmetinin müəyyən olunmasına müxtəlif yanaşmalar vardır.

Y.A.Danilevskiyə və T.M.Mezensevaya görə maliyyə nəzarətinin predmeti "nəzarət olunan obyektlərın iqtisadi əlaqələridir" (www.auditfin.com).

M.V.Romanovski və O.V.Vrublevskinin fikrincə, maliyyə nəzarətinin predmeti "büdcə prosesinin butün mərhələlərindəki (büdcənin tərtibi, müzakirəsi, təsdiqi və icrası) büdcə göstəriciləri, təsərrüfat subyektlərinin fəaliyyətinin maliyyə göstəriciləri (mənfəət, gəlirlər, amortizasıya, maya dəyəri, rentabellik və s.);büdcə və büdcədənkənar fondlara ödəmələr; pul-kredit münasibətlərıni xarakterizə edən göstəricilər, habelə dəyər forması olan digər əməliyyat və fəaliyyətlərdir (Romanovskiy M.V, Vrublevski O.V., 2006: s.104).

V.M.Rodionova və V.I.Şleynikov isə maliyyə nəzarətinin predmetinin muəyyən edilməsinə fərqli mövqedən yanaşır və onu ayrı-ayrı müəssisələr, sahələr, ərazi vahidləri,regionlar və bütövlükdə ölkə səviyəsində maliyyə resurslarının formalaşdrılması və istifadəsi zamanı əmələ gələən pul – bölgü prosesləri kimi müəyyən edirlər (Rodionova V.M, Şleynikov V.I, 2002).

Maliyyə nəzarəti sisteminin vacib, izahı mübahisə doğurmayan elementlərindən biri də nəzarət subyektləridir. Malıyyə nəzarətinin subyektləri maliyyə qanunvericiliyinə əməl olunmasının yoxlanılması üzrə səlahiyyətlərə malik olan xüsusi dövlət nəzarəti orqanları (departamentlər, idarələr, komisiyalar, komitələr, palatalar), müəssisələrin bölmələri və xidmətləri (mühasibatlıq, nəzarət xidmətləri, daxili audit şöbələri), audit təşkılatları və fərdi auditorlar, kredit təşkilatları, ictimai təşkilatlar, eləcə də təsərrüfat subyektlərinin rəhbərləri və əməkdaşlarıdır.

**Şəkil 3. Maliyyə nəzarəti subyektləri**




Mənbə: (Bagırov D, Həsənli M., 2011).

Bazar iqtisadiyyatlı ölkələrdə maliyyə nəzarətinin iqtisadi-hüquqi təşkili spesifik xüsusiyyətlərə malikdir. Bu ölkələrdə Hesablama Palatası və vergi orqanları ilə yanaşı digər xüsusi nəzarət orqanları da fəaliyyət göstərir. Respublikamızda da mütəmadi olaraq dövlət maliyyə nəzarəti sistemi təkmilləşdirilir və ənənəvi nəzarət orqanları ilə yanaşı bir sıra yeni nəzarət qurumları da (MBNP, Maliyyə Monitorinqi Xidməti) yaradılır.

Əvvəl də qeyd etdiyimiz kimi maliyyə nəzarəti idarəetmənin funksiyalarından biri olduğu üçün ona idarəetmə prosesinin ümumi prinsipləri də xasdır. Bu prinsiplərə əsasən aşağıdakıları aid edirlər:

-qanunilik;

-askarlıq;

-səmərəlilik;

-müstəqilik;

-obyektivlik. (Кондрат Е.Н., 2012: s.103).

**Şəkil 4. Maliyyə nəzarətinin təsnifatı**




Mənbə: Şəkil 4. www.auditfin.com internet resursunun məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Beləliklə, maliyyə nəzarəti hazırda dövlətin və digər subyektlərin maliyyə-təsərrüfat fəaliyyətlərində qanunçuluğun təmin edilməsinin mühüm vasitəsi sayılır və maliyyə fəaliyyətinin bütün mərhələlərində həyata keçirilir. O, istehsal və qeyri-istehsal sahələrini əhatə edir, iqtisadi stimullaşdırmanın artırılmasını, maddi, əmək və maliyyə resurslarından, eləcə də təbii sərvətlərdən rasional və diqqətli istifadəni hədəfləyir, qeyri-istehsal xərclərinin və itkilərin azaldılmasını, təsərrüfatsızlığın və israfçılığın qarşısının alınmasını nəzərdə tutur.

Müasir şəraitdə maliyyə nəzarətinin rolu və əhəmiyyəti getdikcə daha da artır. Çünki, maliyyə nəzarəti maliyyə sferasında neqativ halların, qanun pozuntularının önlənməsi, aşkar edılməsi, aradan qaldırılması yolu ilə dövlətin

maliyyə-iqtisadi funksiyalarının uğurla reallaşdırılmasına şərait yaradır, dövlətin pul fondlarından səmərəli istifadəni təmin edir və ən əsası ölkənin stabil iqtisadi inkişafına xidmət edir.

Sonda onu da qeyd edək ki, müasir mərhələdə Azərbaycanda maliyyə nəzarətinin inkişafında yeni meyllər müşahidə olunur. Məsələn, dövlət maliyyə nəzarətinin əhatə dairəsi tədricən daralır. O, getdikcə daha çox makroiqtisadi proseslər, yəni ümumi daxili məhsul, pul kütləsi, dövlətin pul vəsaitləri fondlarının təşkili və istifadəsi üzərində yoğunlaşır. Eyni zamanda qeyri-dövlət maliyyə nəzarətinin əhatə dairəsi genişlənir və məzmunu isə dəyişir.

## 1.2.Maliyyə nəzarətinin formaları və növləri

Maliyyə nəzarəti tarixən dövlət xəzinəsindən vəsaitlərin xərclənməsinə nəzarətin həyata keçirilməsi zərurəti ilə əlaqədar olaraq yaranmışdır. Maliyyə münasibətlərinin inkişafı, vergi, büdcə, bank sistemlərinin yaranması, maliyyə əlaqələrinin dərinləşməsi ilə maliyyə nəzarətinin tətbiq sferaları da tədricən genişlənmiş və onun yeni, müasir növləri, formaları yaranmışdır.

Maliyyə nəzarətinin formaları – bu nəzarət funksiyasının yerinə yetirilməsinə istiqamətlənən nəzarət fəaliyyətlərinin (tədbirlərinin) təşkili və konkret ifadə üsullarıdır (Kroxina Y.A., 2008: s.136).

I.A.Belobjetski nəzarət tədbirlərinin təşkili və ifadə üsullarına (maliyyə nəzarətinin formalarına) ilkin, cari və sonradan nəzarətı aid edir. Onun fikrincə, qeyd olunan təsnifatın əsasını nəzarətin həyata keçirilmə zamanından asılı olaraq maliyyə nəzarətinin təşkili və konkret ifadəsinin ayrı ayrı tərəfləri təşkil edir (http://www.auditfin.com/fin/2003/4/).

**Şəkil 5. Maliyyə nəzarətinin formaları**




Mənbə: şəkil 5. www.auditfin.com internet resursunun məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Ilkin maliyyə nəzarəti hər hansı maliyyə əməliyyatlarının həyata keçirilməsindən öncə aparılır. O, qabaqlayıcı xarakter daşıyır, maliyyə resurslarının qeyri-səmərəli və məqsədsiz istifadəsinin qarşısının alınmasına,

habelə gəlir və mənfəətin artırılması üçün ehtiyatların aşkar edilməsinə xidmət edir.

Bu nəzarət formasının maliyyə üzrə qanun layihələrinin iqtisadi, hüquqi və siyasi nəticələrinin qiymətləndirilməsində, təsərrufat subyektlərinin maliyyə fəaliyyətlərini tənzimləyən yeni maliyyə-hüquq normalarının tətbiqində böyuk əhəmiyyəti vardır. Dövlətin və digər subyektlərin öz nəzarət funksiyalarını ilkin olaraq reallaşdırması maliyyə intizamının möhkəmlənməsinə kömək etməklə, qanun pozuntularıının qarsısının alınmasına istiqamətlənir (Kroxina Y.A., 2008: s.137).

Cari maliyyə nəzarəti maliyyə əməliyyatlarının – vergilərin ödənilməsi, dövlət xərclərinin maliyyələşdirilməsi, büdcələrarası kreditləşmə və büdcələrin icrasının həyata keçirilməsi və s.əməliyyatların gedişində aparılır. Bu nəzarət formasının xüsusiyyəti təsərrüfat və ya maliyyə əməliyyatlarının reallaşdırılması zamanı, daha doğrusu maliyyə orqanlarının gündəlik iş prosesində həyata keçirilməsidir. Ona görə də bəzən onu operativ maliyyə nəzarəti də adlandırırlar.

Cari maliyyə nəzarəti ilkin mühasibat uçotu sənədlərinə əsaslanır, müəssisə və təşkilatların fəaliyyətlərinin sistemli təhlilini nəzərdə tutur və maliyyə intizamının, mühasıbat uçotunun aparılma qaydalarının pozulması hallarının qarşısının alınması, zərər və itkilərə yol verilməməsi məqsədini daşıyır.

Sonradan maliyyə nəzaərəti maliyyə əməliyyatları başa çatdıqdan sonra maliyyə və mühasibat sənədlərinin təhlil və təftişi, ayrı-ayrı büdcələrin və büdcədənkənar fondların büdcələrinin, sahə proqramlarının və ya dövlət (bələdiyyə) müəssisələrinin smetalarının icrası haqqında hesabatların xarici auditinin aparılması yolu ilə reallaşdırılır.

Bu nəzarət formasının əsas məqsədi maliyyə fəaliyyətlərinin nəticələrinin və həyata kecirilən əməliyyatların effektivliyinin qiymətləndirilməsidir. Hesabat dövrünün sonunda həyata keçirilən nəzarət zamanı maliyyə intizamının vəziyyəti müəyyənləşdirilir, qanun pozuntuları aşkarlanır və maliyyə fəaliyyətinin daha da təkmilləşdirilməsi üçün müəyyən əsaslar yaradılır (Kroxina Y.A., 2008: s.138).

Sonradan nəzarət müəyyən dövr ərzində hər hansı bir subyektin maliyyə fəaliyyətinin dərin, geniş təhlili ilə fərqlənir və əvvəl keçirilən ilkin və cari maliyyə nəzarətinin səmərəliliyini müəyyən etməyə imkan verir (Kroxina Y.A., 2008: s.138).

Kroxina Y.A. imperativlik dərəcəsi, N.I.Ximiçeva isə nəzarət obyektinin iradəsindən asılı olaraq maliyyə nəzarətini iki yerə ayırırlar.

**Şəkil 6. Maliyyə nəzarətinin növləri**




Mənbə: (Ximiçeva N.İ., 2008).

Məcburi maliyyə nəzarəti aşagıdakı hallarda kecirilir:

-qanunvericilıyin tələbi ilə;

-dövlət hakimiyyəti orqanlarının, bələdiyyə orqanlarının, hüquq-mühafizə orqanlarının qərarları ilə.

Könüllü maliyyə nəzarəti isə təsərrüfat subyektinin qərarı ilə müvafiq strukturların (mühasibatlıq, maliyyə şöbələri, hüquq xidməti və s.) və ya ixtisaslı mütəxəsislərin (müstəqil ekspertlər, fərdi auditorlar) iştirakı ilə həyata keçirilir (Ximiçeva N.İ., 2008: s.137).

**Şəkil 7. Maliyyə nəzarətinin  subyektlərdən asılı olaraq növləri**




Mənbə: (Ximiçeva N.İ., 2008).

Maliyyə nəzarəti maliyyə fəaliyyətinin bir növü və eyni zamanda maliyyə sferasında dövlətin idarəetmə fəaliyyətinin bir qolu kimi çıxış edir. Ona görə də dövlət və bələdiyyə nəzarətini həyata keçirən subyektlərdən asılı olaraq maliyyə nəzarətini aşağıdakılara ayırırlar:

-qanunverici (nümayəndəli) hakimiyyət orqanlarıının nəzarəti;

-prezident nəzarəti;

-ümumi səlahıyyətli icra hakimiyyəti orqanlarnın nəzarəti;

-xüsusi yaradılmış icra hakimiyyəti və yerli özünüidarə orqanlarının nəzarəti;

-daxili (idarədaxili və ya təsərrüfat daxili) nəzarət;

-audit nəzarəti;

-ictimai nəzaərət (Kroxina Y.A., 2008: s.139).

Dövlət maliyyə nəzarəti umumi nəzarət sisteminin önəmli bir  həlqəsi vəya idarəetmə sisteminin başlıca elementlərindəndir (Voronin Y.M., 2005: səh.46). Dovlət

maliyyə nəzarəti – dövlətin maliyyə siyasətinın reallaşdırılmasına xidmət edən vacib bir idarəetmə funksiyasıdır.

Dövlət malıyyə nəzarəti maliyyə idarəetməsinin xüsusi funksiyası olmaqla, həm dövlətin, həm də bütövlükdə cəmiyyətin maraqlarının təmin olunmasına istiqamətlənir (Voronin Y.M., 2005: səh.46).

**Şəkil 8. Dövlət maliyyə nəzarətinin geniş və dar mənada məzmunu**

Geniş aspektdə dövlət maliyyə nəzarəti –effektiv maliyyə siyasətinin həyata keçirilməsi, ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi məqsədilə reallaşdırılan dövlət tənzimlənməsi tədbirlərinin məcmusudur

Dar mənada dövlət maliyyə nəzarəti – ölkənin sosıal-iqtisadi inkişafı məqsədilə dovlətin və bələdiyyələrin pul fondlarının yaradıılması,bölüsdürülməsi və istifadəsi prosesində fəaliyətlərin qanuniliyi və məqsədəuyğunluğu üzərində xususi orqanların nəzarətidir.

**Dövlət maliyyə nəzarəti**

Mənbə: (Voronin Y.M., 2005).

Qeyd etdiyimiz nəzarət növünün obyektıni ictimai pul fondlarının yaradılması,bölüşdürülməsi və istifadəsi prosesində pul vəsaitlərinın hərəkəti, eləcə də maddi,əmək və digər resurslar təşkil edır.

Dövlətin maliyyə nəzarətinin məgsədi olaraq isə ictimai maliyyə fəaliyyətinin səmərəliliyinin və qanuniliyinin təmin edilməsi müəyyən edilir.

**Şəkil 9. Dövlət maliyyə nəzarətnin vəzifələri**




Mənbə: Şəkil 9. www.cyberleninka.ru internet resursunun məlumatları əsasında hazırlanmışdır.

Dövlət maliyyə nəzarətinin əsas məqsədini reallaşdırmaq və qarşıya qoyulmuş vəzifələrini yerinə yetirmək üçün kompleks nəzarət tədbirlərinin keçirilməsi tələb olunur (şəkil 1.10.).

Dövlət və bələdiyyə nəzarətinin səmərəliliyi ölkədə uçotun (mühasibat, büdcə, vergi) düzgün, keyfiyyətli təşkilindən də əhəmiyyətli dərəcədə asılıdır.

Beləliklə, dövlət maliyyə nəzarətinin əsas istiqamətləri maliyyə hüququ subyektləri tərəfindən qanunvericiliyə əməl olunmasının yoxlanılması və dövlətin, bələdiyyə qurumlarının maliyyə fəaliyyətlərinin səmərəliliyinin təmin edilməsi hesab olunur. Onu da qeyd edək ki,dövlət maliyyə nəzarətinin fəaliyyət sferası təkcə dövlətin və bələdiyyələrin maliyyə fəaliyyətləri ilə məhdudlaşdırılmır, ictimai maraqlarla bağlı olan fiziki və hüquqi şəxslərin maliyyə fəaliyyətləri də bu nəzarət növünün fəaliyyət sferasına daxil edilir.

**Şəkil 10. Dövlət maliyyə nəzarətinin vəzifələrinin həlli üçün zəruri olan tədbirlər**




Mənbə: Şəkil 10. www.cyberleninka.ru internet resursunun məlumatları əsasında hazırlanmışdır.

Daxili maliyyə nəzarəti ayrı-ayrı nazirlik və idarələr (idarədaxili), eləcə də müəssisə və təşkilatlar daxilində (təsərrüfatdaxılı) həyata keçirilən bir nəzarət növüdür (Kroxina Y.A., 2008: s.148).

Idarədaxili maliyyə nəzarəti nazirlik, idarə və digər dövlət orqanlarının nəzarət-təftiş idarələri tərəfindən onlara tabe olan muəssisə və təşkilatlara münasibətdə həyata keçirilir.

**Şəkil 11. Idarədaxili maliyyə nəzarətinin formaları, obyektləri və metodları**




Mənbə: (Kroxina Y.A., 2008).

Təsərrüfatdaxili maliyyə nəzarəti isə hər hansı təsərrüfat subyektinin idarəedici orqanının təşəbbüsü ilə mövcud iqtisadi, maliyyə və hüquqi xidmətlər tərəfindən həyata keçirilir (Kroxina Y.A., 2008: s.149).

Daxili nəzarət mülkiyyətçinin mənafelərinə uyğun olaraq həyata keçirilir. Ona gorə də onun əsas məqsədini maliyyə fəaliyyətinin səmərəli şəkildə aparılması üçün rəhbərliyə və ya idarəetmə orqanına yardım etmək təşkil edir (Kroxina Y.A., 2008: s.149).

Başqa formada ifadə etsək,daxili maliyyə nəzarətinin məqsədini təsərrüfat subyektlərinin maraqlarının təmin edilməsi, təsərrüfatdaxılı ehtiyyatların aşkar edilməsi və qeyri-səmərəli xərclərin azaldılması, maliyyə,maddi və əmək ehtiyatlarından istifadənin səmərəliliyinin yüksəldilməsi təşkil edir.

Daxili nəzarətin xüsusilə məcburi maliyyə yoxlamalarından əvvəl aparılması zəruridir. Belə olan halda müəssisənin fəaliyyətindəki maliyyə pozuntularını vaxtında aşkar edib, aradan qaldırmaq, eləcə də müvafiq sənədləri lazımi qaydada tərtib etmək, hazırlamaq mümkün olur.

Ictimai maliyyə nəzarəti qeyri-hökumət təşkilatları, yəni ictimai təşkilatlar və birliklər tərəfindən həyata keçirilir. Dövlətin maliyyə münasibətləri sferasında ictimai maliyyə nəzarətinin obyektlərinə büdcənin icrası barədə hesabatlar,

qanunverici məhdudiyyətlər olmadıqda – auditor hesabatları və rəyləri, dövlətin (bələdiyyələrin) pul vəsaitlərinin bölüşdürülməsi və istifadəsini həyata keçirən müxtəlif fondların fəaliyyətləri və sairə aid edilir (Kroxina Y.A., 2008: s.153).

Maliyyə nəzarətinin bu növü dövlətin maliyyə siyasəti barədə ictimai rəy formalaşdırmaq məqsədi daşıyır və ictimai maliyyə fəaliyyətinin daha şəffaf olmasına xidmət edir.

Müasir şəraitdə maliyyə nəzarətinin böyük əhəmiyyətə malik növlərindən biri də audit nəarətidir. Audit nəzarəti dövlət və təsərrüfatdaxili nəzarəti əvəz etmir, çünki onun məqsədi maliyyə əməliyyatlarının düzgünlüyü və mühasibat uçotunun mövcud qanunvericiliyə uyğun aparılması barədə rəy bildirməkdir.

Audit nəzarətinin mühüm əhəmiyyətini nəzərə alaraq, dövlət bu sahədə yaranan münasibətlərin normativ-hüquqi tənzimlənməsini həyata keçirir. Belə ki, “Auditor xıdməti haqqında” AR Qanunu ilə auditor təşkilatlarının lisenziyalaşdırma qaydası, auditorlara qoyulan tələblər, auditorların hüquq və vəzifələri, məcburi auditə cəlb olunmalı olan subyektlər və s. bu kimi məsələlər tənzimlənir («Audııtor xidməti haqqında» AR Qanunu, 1994).

**Cədvəl 1. Maliyyə nəzarətinin təsnifat əlamətləri**

| **Maliyyə nəzarətinin təsnifatı** | |
|---|---|
| **Təsnifat əlaməti** | **Maliyyə nəzarətinin növləri** |
| Nəzarət subyektinə gorə | Dövlət nəzarəti, daxilı nəzarət, audit nəzarəti, ictimaı nəzarət |
| Nəzarət obyektinin iradəsinə görə | Məcburi nəzarət,<br>Könullü nəzarət |
| Maliyyə fəaliyətinin sferalarına gorə | Büdcə nəzarəti, vergi nəzarətı, kredit nəzarəti, sıgorta nəzarəti, valyuta nəzarəti və s. |
| Fəalıyyətin həcminə görə | Tam nezarət,<br>Qismən nəzarət |
| Informasiya mənbəyinə görə | Sənədli nəzarət,<br>Faktikı nəzarət |

Mənbə: Cədvəl 1. www.auditfin.com internet resursunun məlumatları əsasında hazırlanmışdır.

Digər təsnifat əlamətinə, yəni maliyyə fəaliyyətinın sferalarına görə isə maliyyə nəzarətinin aşagıdakı növlərini ayırırlar:

-büdcə nəzarəti;

-vergı nəzarəti;

-kredit nəzarəti;

-sıgorta nəarəti;

-valyuta nəzarəti və s (Malsev V.A., 2008).

Büdcə nəzarəti büdcə prosesi zamanı həyata keçirilən dövlət maliyyə nəzarətinin ən vacib tərkib hissəsidir. Onun əsas məqsədi büdcə münasibətlərinin bütün istirakçıları tərəfindən büdcə qanunvericilıyinə əməl olunmasına nəzarət etməkdir.

**Şəkil 12. Maliyyə nəzarətinin maliyyə fəaliyyətinin sferalarından asılı olaraq növləri**




Mənbə: (Malsev V.A., 2008).

Vergi nəzarəti də maliyyə nəzarətinin mühüm tərkib hissəsi və dövlət nəzarətının əsas növlərindən biridir. Vergi nəzarəti spesifık forma və metodlar tətbiq etməkllə təsərrüfat və idarəetmə subyektlərinın maliyyə, vergi və onlarla bağlı digər məsələlərinin yoxlanılması uzrə əməliyyatların və fəaliyyətlərin məcmusudur.

Vergi nəzarəti vergilərin və digər məcburi ödənişlərin dövlət büdcəsinə və digər fondlara səfərbər edilməsinə şərait yaratmaqla, vergilərin əsas funksiyasının, yəni fiskal funksiyanın həyata keçirilməsinə yardımçı olur.

Vergi nəzarəti qanunvericiliklə müəyyən edilmiş vergilərin düzgün hesablanması və büdcəyə köçürülməsinin, vergi bəyannamələrinin düzgün tərtib olunmasının, eləcə də təsərrüfat subyektlərinə və fiziki şəxslərə vergi güzəştlərinin verilməsinin yoxlanılması yolu ilə cəmiyyətin işgüzar fəaliyyətinin bütün sektorlarını əhatə edir.

Sığorta nəzarəti dövlət hakimiyyətinin həyata keçirilməsi elementi kimi sığorta sferasında qanunçuluğun təmin edilməsinə istiqamətlənir. Sığorta nəzarəti sığorta qanunvericiliyinə əməl olunması, sığorta münasibətləri subyektlərinin hüquq və qanuni mənafelərinin təmin edilməsi, bütövlükdə sığorta işinin effektiv inkişafı məqsədilə həyata keçirilir.

Maliyyə nəzarətinin digər bir növü olan valyuta nəzarəti valyuta əməliyyatlarının həyata keçirilməsi zamanı valyuta qanunvericiliyinə riayət olunmasına xidmət edir. Valyuta nəzarəti – valyuta əməliyyatlarının aparılması gedişində valyuta qanunvericiliyinə riayət edilməsi üzərində ölkə hökumətinin, eləcə də valyuta nəzarəti orqanları və agentlərinin nəzarətidir. Azərbaycan Respublikasının əsas valyuta nəzarəti orqanlarına və agentlərinə isə ölkənin Mərkəzi Bankı, Maliyyə Bazarlarına Nəzarət Palatası, habelə müvəkkil banklar aid edilir ("Valyuta tənzimi haqqında" AR Qanunu 21.10.1994).

## 1.3.Dövlət maliyyə nəzarəti sisteminin fəaliyyətinin müqayisəli təhlili: yerli və bəynəlxalq təcrübə

Hər bir ölkənin dövlət maliyyə nəzarəti sisteminin dövlətin inkişafının tarixi aspektləri ilə bağlı olan özünəməxsus xüsusiyyətləri, əlamətləri vardır. Ayrı-ayrı ölkələrdə artıq xeyli vaxdır ki, dövlət maliyyə nəzarəti orqanları demokratık cəmiyyətin ayrılmaz tərkib hissəsi və ictımai maliyyə vəsaitlərinin idarə edilməsinin məcburi elementi kimi çıxış edirlər.. Bu baxımdan xarici ölkələrin, xüsusən də inkişaf etmiş ölkələrin dövlət maliyyə nəzarəti sisteminin çoxəsrlik təcrübəsinin öyrənilməsinin, onun müsbət tərəflərinin tətbiq olunmasının respublikamız üçün böyük əhəmiyyəti ola bilər.

Maliyyə idarəetməsi sahəsində dövlət nəzarəti - dövlətin maliyyə resurslarının effektiv idarə edilməsini təmin edən ən təsirli, səmərəli vasitələrdən biridir.

Xarici ölkələrdə dövlət maliyyə nəzarəti müxtəlif modellər əsasında qurulur, lakin ümumilikdə bu sistemin inkişafı üçün qeyri –mərkəzləşdirmə meylləri və auditin və ya onun elementlərinin nəzarət fəaliyyətinin müstəqil bir qolu kimi ayrılması xarakterik olur.

**Cədvəl 2. Inkişaf etmiş ölkələrdə maliyyə nəzarətinin təşkili**

| Nəzarət subyekti | Fərqləndirici xüsusiyyət | |
|---|---|---|
| | Tabeçilik | Nəzarət obyekti |
| Dövlət maliyyə nəzarətinin ali orqanı | Parlament və ya prezident | Büdcənin məxaric hissəsi |
| Vergi orqanları | Hökumət və ya Maliyyə Nazirliyi | Büdcənin mədaxil hissəsi |
| Nazirlik və idarələrdə nəzarət-təftişbölmələri | Müvafiq nazirliyə | Büdcənin xərc hissəsi (daha detallı nəzarət) |

Mənbə: Cədvəl 2 www.juristlib.ru internet resursunun məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Bəzi ölkələrdə (Avstraliya, Kanada, Böyuk Britaniya, Danimarka, Hindistan, Misir, Irlandiya) dövlət maliyyə nəzarətinin funksıyalarını ayrı-ayrı vəzifəli şəxslər yerinə yetirirlər.

Digər ölkələrdə (Belarus, Litva, Moldova, Kipr, Albaniya, Əfqanıstan, İordaniya, İndoneziya, Kolumbiya, Monako, İsrail) dövlət nəzarətini hesablama orqanları həyata keçirirlər.

Üçüncü qrup ölkələrdə isə (Fransa, İtaliya, Rumıniya, Sloveniya, Əlcəzair, Tunis, Mərakeş, Qvineya, Haiti, Argentina) maliyyə nəzarətini Hesablama məhkəmələri kimi qurumlar həyata keçirirlər. Bu qrup ölkələrə dövlət maliyyə nəzarətinin Hesablama Tribunalları tərəfindən həyata keçirildiyi ölkələri də (Braziliya, Uruqvay, Portuqaliya) aid etmək olar.

Göründüyü kimi dünya ölkələrinin əksəriyyətində dövlət maliyyə nəzarətini ali nəzarət orqanları, yəni hesablama palataları, məhkəmələri və ya buna oxşar qurumlar həyata keçirirlər.

Ali maliyyə nəzarəti orqanları (hesablama orqanları) inkişaf etmiş bazar iqtısadiyatlı ölkələrdə - dövlət büdcəsi vəsaitlərinın məqsədli və səmərəli istifadəsı, dövlət əmlakının idarə edılməsi, eləcə də xarici iqtisadi fəaliyyətın qanuniliyi üzərində kənar maliyyə nəzarətıni həyata keçirən müstəqil,kollegial dövlət hakimiyyəti orqanlarıdır.

Ayrı - ayrı ölkələrin ali audit qurumları (Hesablama Palataları) yaranma tarixi, adı, fəaliyyətinin konstitusion əsasları, müstəqillik dərəcəsi, tabeçilik xarakteri (parlament və ya dövlət başçısı), daxili strukturu, nəzarət səlahiyyətlərinin həcmi, yoxlamaların aparılma forması və onların həyata keçirilmə sferası baxımından fərqlənsələr də ümumən demək olar ki, onlar eyni vəzifə və funksiyaları həyata keçirirlər və dövlətin normal fəaliyyətini, inkişafını təmin edən şəraitin yaradılmasına xidmət edirlər.

Xarici ölkələrin əksəriyyətində maliyyə nəzarətini ali nəzarət orqanları ilə yanaşı hökumətin nəzarət-təftiş qurumları da həyata keçirirlər. Məsələn, Böyük Britaniyada maliyyə nəzarətini Milli Nəzarət-Təftiş İdarəsi ilə yanaşı hökumətə bağlı İctimai Hesablama Komitəsi də həyata keçirir.

Almaniyada isə dövlət maliyyə nəzarətini federal Hesablama Palatası və torpaqların (federasiya subyektlərinin) Hesablama Palataları ilə bərabər, bu ölkənin Maliyyə Nazirliyi və onun yerli orqanları, pul-kredit sahəsində isə Bundesbank və onun müvafiq strukturları həyata keçirirlər.

Almaniyanın Hesablama Palatası həm federal iqtisadiyyatın idarə edilməsinə və büdcə maliyyələşməsinə, həm də dövlətdən maliyyə vəsaitləri alan (dotasiya) dövlət müəssisələrinin, sosial sığorta təşkilatlarının fəaliyyətlərinə nəzarət edir. Palata həmçinin federasiyanın tabeçiliyində olmayan, lakin federal vəsaitləri idarə etmək hüququna malik olan təşkilatlara da nəzarət edir.

**Cədvəl 3. Dövlət maliyyə nəzarətinin yaranma və inkişaf mərhələləri**

| İl | Hadisə |
|---|---|
| 1314 | İngiltərənin dövlət xəzinəsinin baş nəzarətçisi vəzifəsi təsis olunmuşdur |
| 1319 | Fransa Hesablama Palatası yaradılmışdır |
| 1365 | Navarra Krallığının (İspaniya) Hesablama Palatası yaradılmışdır |
| 1761 | Avstriya-Macarıstanın Hesablama Palatası yaradılmışdır |
| 1862 | İtaliyanın Hesablama Palatası yaradılmışdır |
| 1921 | ABŞ-da Baş Büdcə-Nəzarət İdarəsi yaradılmışdır |
| 1977 | İNTOSAİ-nin (Ali nəzarət orqanlarnın beynəlxalq təşkilatı) IX Konqresində nəzarətin təməl prinsıpləri haqqında Lima bəyanaməsi qəbul edilmişdir |

Mənbə: Cədvəl 3 www.juristlib.ru internet resursunun məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Fransada dövlət maliyyə nəzarətini bu ölkənin ali nəzarət orqanı olan Hesablama Məhkəməsi (əsası 1319-cu ildə Fransa kralı V Filip tərəfindən qoyulmuşdur), kənar və daxili nəzarət qurumları həyata keçirirlər (www.juristlib.ru).

Fransanın Hesablama Məhkəməsi dövlət maliyyəsinin idarə edilməsinə və dövlət hesablarına, eləcə də dövlət orqanları və müəssisələrinə nəzarət edir. Bu ali nəzarət orqanı həmçinin sosial müdafiə sistemi müəssisələrinin fəaliyyətlərinə və hesablarına da nəzarəti həyata keçirir. Onu da qeyd edək ki,aparılan yoxlamalar bu təşkilatların fəaliyyətlərinin sırf maliyyə tərəfləri ilə məhdudlaşmır və fəaliyyətin digər tərəflərini də əhatə edir.

Maliyyə və İqtisadiyyat Nazirliyinin – Baş Maliyyə İnspeksiyası isə kənar maliyyə nəzarəti orqanı kimi hər hansı bir formada dövlətdən vəsait (subsidiyalar, ssudalar, avanslar, investisiyalar) alan ictimai və ya xüsusi təşkilatlara, eləcə də bütün dövlət mühasiblərinə nəzarəti həyata keçirir.

Fransanın maliyyə nəzarəti orqanları tərəfindən həyata keçirilən yoxlamalar (nəzarət tədbirləri) zamanı aşağıdakı kriteriyalar əsas götürülür:

-yoxlamaların maliyyə əhəmiyyəti (virtual gəlirlərin maksimallaşdırılması nöqteyi-nəzərindən maliyyə əməliyyatlarının miqyası nəzərdə tutulur);

-risk dərəcəsinin qiymətləndirilməsi (qanunvericiliyin pozulması və əsassız xərclərə yol verilməsinin yüksək ehtimalı nəzərdə tutulur);

-nəzarətin səmərəliliyi (minimum vaxt və xərclə yoxlamanın mümkün effektivliyinin təmin edilməsi nəzərdə tutulur);

-xarici təzyiq (parlament sorğusu və ya ictimai gözləntilərə əsasən nəzarətin aparılması nəzərdə tutulur) (Qodin A.M, Qoreqlyad V.P, Podporin İ.V., 2010).

**Cədvəl 4. Azərbaycanın və digər ölkələrin dövlət maliyyə nəzarəti sisteminin muqayisəli cədvəli**

| Dövlət maliyyə nəzarətini həyata keçirən strukturlar | | |
|---|---|---|
| **Azərbaycan** | **ABŞ** | **Rusiya** |
| Maliyyə Nazirliyi | Maliyyə Nazirliyi (Xəzinədarlıq Departamenti) | Maliyyə Nazirliyi |
| AR Hesablama Palatası | Konqresin Baş Büdcə-Nəzarət İdarəsi | RF Hesablama Palatası |
| Dövlət maliyə nəzarəti xidməti | Prezident yanında Inzibati – Büdcə Idarəsi | Prezidentin Nəzarət Idarəsi |
| Dövlət Xəzinədarlıq Agentliyi | Maliyyə Nazirliyinin Daxili Gəlirlər Xidməti | Federal Xəzinədarlıq |
| Dövlət orqanlarında daxili audıt və nəzarət strukturları | Pul Dövriyyəsinə Nəzarət Idarəsi | Idarədaxili nəzarət orqanları |

Mənbə: Cədvəl 4 www.juristlib.ru internet resursunun məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Bugünkü gün inkişaf etmiş ölkələrdə dövlət maliyyə nəzarəti orqanlarının böyük əksəriyyəti maliyyə-büdcə nəzarətinin aparılmasının ən mühüm üsullarından biri kimi səmərəlilik auditindən geniş istifadə edirlər. Onun başlıca məqsədini mövcud dövlət resurslarının istifadəsi zamanı sosial əhəmiyyətli nəticəni müəyyən etmək təşkil edir.

Ümumiyyətlə səmərəlilik auditi dövlət (bələdiyyə) vəsaitlərindən istifadənin iqtisadi və sosial nəticələrini üzə çıxarmağa imkan verir və bu vəsaitlərdən istifadənin səmərəliliyinin qiymətləndirilməsi məqsədi ilə aparılır.

Dövlət maliyyə nəzarəti sistemində səmərəlilik auditi aşağıdakı xüsusiyyətləri ilə xarakterizə olunur:

-dövlət maliyyə nəzarətinin xüsusi bir forması kimi dövlətin maliyyə vəsaitlərinin formalaşması və istifadəsinin səmərəliliyini müəyyən etmək məqsədi ilə reallaşdırılır;

-dövlət vəsaitlərinin formalaşması və istifadəsinə maliyyə nəzarətinin bir forması kimi səmərəlilik auditi maliyyə auditi ilə bərabər ümumi prinsiplərə və metodlara əsaslanır;

-dövlət maliyyə nəzarətinin aparılma forması kimi səmərəlilik auditi maliyyə auditindən həyata keçirilmə metodologiyası, predmeti, məqsəd və vəzifələri baxımından əhəmiyyətli dərəcədə fərqlənir.

**Cədvəl 5. Maliyyə auditi və səmərəlilik auditi arasındakı fərqlər**

| Fərqlər | Maliyyə auditi | Səmərəlilik auditi |
|---|---|---|
| Məqsədlər | Dövlət vəsaitlərindən istifadənin məqsədyönlüyünü və qanuniliyini müəyyən etmək | Dövlət vəsaitlərindən istifadənin səmərəliliyini müəyyən etmək |
| Yoxlamaya cəlb olunan materiallar | Dövlət vəsaitlərinin istifadəsini əks etdirən maliyyə sənədləri və hesabatlar | Qarşıya qoyulmuş məqsədlər, vəzifələr və proqramlar üzrə dövlət vəsaitlərinin formalaşdırılması və istifadəsi ilə bağlı fəaliyyətlərin nəticələrini əks etdirən sənədlər |
| İşlərin məzmunu | Dövlət vəsaitləri ilə bağlı əməliyyatların sənədli və faktiki yoxlanılması, habelə onların mühasibat uçotu və maliyyə hesabatlarında əks olunması | Səmərəliliyin qiymətləndirilməsi kriteriyalarının hazırlanması, işlərin təşkilinin təhlili, müqayisəli təhlil, sintez, sorğu, müsahibə və s. |
| Auditin nəticələrinin təqdim olunma forması | Aşağıdakı şəkildə:<br>-standart formadakı hesabatlar;<br>-maliyyə sənədləri əsasında gəlinən nəticələr;<br>-müəyyən edilmiş qanun pozuntularının və onların aradan qaldırılması üzrə tədbirlərin göstərilməsi | Aşağıdakı şəkildə:<br>-ayrı-ayrı arqumentlər və sübutlar əsasında gəlinən nəticələr;<br>-müəyyən konstruktuv təkliflər və s. |

Mənbə: (www.articlekz.com).

Onu da qeyd etmək yerinə düsər ki, hazırda inkişaf etmiş ölkələrin ali maliyyə nəzarəti orqanlarının həyata keçirdiyi yoxlamaların ümumı sayında adətən səmərəlilik auditinin payı 50 faizdən çox olur.

Lakin keçmiş sovet respublikalarında həyata keçirilən nəzarət tədbirlərində səmərəlilik auditinin payı xeyli aşağıdır. Məsələn, Rusiya Federasiyasının Hesablama Palatasının apardığı yoxlamaların ümumi sayında səmərəlilik auditinin payı cəmi 4 faiz təşkil edir.

Respublikamız barədə zəruri məlumatlar olmadığı üçün konkret bir söz söyləmək çətinlik yaradır. Ancaq onu əminliklə demək olar ki, Azərbaycanda

indiyədək dövlətin nəzarət orqanları tərəfindən həyata keçirilən yoxlamalarda əsas diqqət büdcə vəsaitlərinin qanuni və tam xərclənməsinə yönəldilir və bu da xaric ölkələrdə aparılan səmərəlilik auditindən xeyli fərqlənir.

**Cədvəl 6. Xarici ölkələrdə səmərəlilik auditinin xarakteristikası**

| Ölkə | Maliyyə nəzarəti orqanı | Xüsusiyyətlər | Nəzarətin obyekti |
|---|---|---|---|
| Kanada | The Office of the Audit General | Dövlət orqanlarının fəaliyyətinin və proqram sənədlərinin səmərəliliyinin qiymətləndirilməsi | Dövlət vəsaitlərindən istifadə edən, dövlət proqramlarını reallaşdıran təşkilatlar |
| Böyük Britaniya | National Audit Office | Dövlət vəsaitlərindən istifadənin iqtisadi və sosial nəticələrinin üzə çıxarılması | Dövlət vəsaitlərindən istifadə edən təşkilatlar, |
| ABŞ | The Government Accountability Office (GAO) | Dövlət proqramlarındakı uyğunsuzluqların, səhvlərin aşkar edilməsi və aradan qaldırılması | Dövlət və hökumət proqramlarını reallaşdıran təşkilatlar |
| Avstraliya | Australian National Audit Office, ANAO | Dövlət orqanlarının əməliyyat fəaliyyətinin bütün aspektlərinin araşdırılması və səmərəliliyinin qiymətləndirilməsi | Büdcə vəsaitlərinin istifadəçiləri |

Mənbə: Cədvəl 6 www.cyberleninka.ru internet resursunun məlumatları əsasında hazırlanmışdır.

Xarici ölkələrdə nəzarət orqanlarının fəaliyyətini təhlil edərkən, onların yüksək səmərəliliyini də qeyd etmək lazımdır. Aparılan yoxlamalar nəticəsində bu qurumlar böyük məbləğdə vəsaitlərin dövlət büdcəsinə qaytarılmasına nail olurlar. Eyni zamanda nəzarət tədbirlərinin həyata keçirilməsi zamanı xərclərin iqtisadi səmərəliliyi və məqsədəuyğunluğuna, konstruktiv təklif və tövsiyyələrin hazırlanmasına (yoxlama və təftişin nəticələri əsasında), qeyri-rasional xərclərin azaldılmasına xüsusi diqqət yetirildiyindən, bu yoxlamalardan əldə olunan əməli nəticələr də daha əhəmiyyətli olur. Məsələn, təkcə ABŞ-da Konqresin tədqiqat

xidmətinin məlumatlarına əsasən federal təftiş-nəzarət orqanlarının fəaliyyətlərindən ümumi iqtisadi səmərə son 50 ildə 500 milyard dollar səviyyəsində olmuşdur (www.juristlib.ru).

Beləliklə, qeyd etdiklərimiz əsasında belə bir nəticəyə gəlmək olur ki, xarici ölkələrdə, o cümlədən respublikamızda dövlət maliyyə nəzarəti orqanları ümumən dövlət maliyyəsinin idarə olunmasında mühüm və fəal rol oynayırlar. Mövcud dovlət maliyyə nəzarəti orqanları əsasən müstəqildir, onların fəaliyyətləri isə məhsuldar və effektivdir. Buna qeyd olunan nəzarət orqanlarının öz fəaliyyətlərində ən mütərəqqi metod və üsullardan, alət və vasitələrdən istifadə etməsi də əlverişli şərait yaradır.

Sonda qeyd etmək lazımdır, bu sahədə xarici təcrübənin müsbət tərəflərinin tətbiqinin ölkədə nəzarət işinin səmərəliliyi və nəticəliliyinin, bütövlükdə dövlət idarəetməsinin səmərəliliyinin artırılmasına böyük köməyi dəyə bilər.

# FƏSİL 2. RESPUBLIKADA MÜASIR IQTISADI ŞƏRAITDƏ DÖVLƏT MALIYYƏ NƏZARƏTI VƏ ONUN TƏŞKILI XÜSUSIYYƏTLƏRI

## 2.1. Büdcə vəsaitlərinə dövlət maliyyə nəzarətinin təşkili xüsusiyyətləri və müasir vəziyyəti

Müasir şəraitdə maliyyə nəzarətinin strukturunda mühüm tərkib hissələrindən biri də büdcə nəzarətidir. O, dövlət idarəetməsinin əsas funksiyalarından biri və istənilən dövlətin iqtisadi sisteminin səmərəli fəaliyyət göstərməsinin vacib şərtidir.

Hazırda bütün sahələrdə olduğu kimi iqtisadi sahədə də əsaslı islahatların, dəyişikliklərin aparıldığı bir vaxtda büdcə nəzarətinin səmərəli təşkilinə, onun muasir reallıqlara uygun təkmilləşdirilməsinə böyuk ehtiyac duyulur.

Müasir şəraitdə büdcə nəzarəti büdcə prosesinin bütün mərhələlərində qanunçuluğa əməl olunması ilə yanaşı, büdcə vəsaitlərinin formalaşdırılmasına, eləcə də dövlət və bələdiyyə müəssisələrinin bu vəsaitlərdən məqsədli istifadəsinə yönəlir.

Dövlət maliyyə nəzarətinin növü kimi büdcə nəzarətinə də eyni məqsədlər, vəzifələr, funksiyalar və eyni problemlər – nəzarət fəaliyyətinin vahid konsepsiyasının formalaşdırılmaması, büdcə vəsaitlərindən istifadənin səmərəliliyinin qiymətləndirilməsinin vahid meyarlarının müəyyən olunmaması kimi problemlər xasdır.

Büdcə nəzarətinin əsas vəzifəsi maliyyə qanunvericiliyinə, maliyyə intizamına əməl olunmasının təmin edilməsi, büdcə vəsaitlərinin məqsədsiz istifadəsinə yol verilməməsi vasitəsilə dövlətin maliyyə siyasətinin uğurla həyata keçirilməsinə yardım etməkdir.

Büdcə nəzarəti optimal maliyyə-büdcə siyasətının hazırlanmasına və reallaşdırılmasına şərait yaradır, dövlət büdcəsinə daxilolmaların maksimum artmasına səbəb olur və iqtisadiyyatın inkişafına təkan verir.

Büdcə nəzarətinin obyekti bütün büdcə səviyyələrində maliyyə resurslarının formalaşdırılması və istifadəsi zamanı yaranan bölüşdürücü prosеslər, əslində büdcə prosesidir.

Büdcə nəzarətinin predmetləri isə müxtəlif səviyyəli büdcələrin gəlir və xərcləri, vergi ödənişləri, büdcə ssudaları və subsidiyalarıdır.

Dövlətin iqtisadi-hüquqi fəaliyyətinin bir növü kimi büdcə nəzarəti bir sıra prinsiplərə (qanunılik, obyektivlik, sistemlilik, aşkarlıq, səmərəlilık, nəticəlilikvə s.) əsaslanır.

Bazar iqtisadiyyatı şəraitində büdcələrarası münasibətlərin mürəkkəbləşdiyi, vergilərin büdcənin gəlir hissəsinin formalaşdırılmasındakı rolunun artdığı bir şəraitdə büdcə nəzarətinin əhəmiyyəti dəfələrlə artır.

Büdcə nəzarəti mürəkkəb, çoxtərəfli bir kateqoriyadır. Bir tərəfdən o, dövlət idarəetməsinin bir funksiyası, digər tərəfdən isə özünəməxsus metodlar, üsullar və reallaşdırılma formalarına malik idarəetmə fəaliyyəti kimi xarakterizə olunur.

Müasir şəraitdə büdcə nəzarətinin təşkili və həyata keçirilməsində qanunverici hakimiyyət orqanları əsas rol oynayırlar. Dünyanın əksər ölkələrinin qanunvericilik orqanları büdcə nəzarətini birbaşa deyil, mövcudluğu konstitusiya ilə təsbit olunan xüsusi yaradılmış maliyyə nəzarəti orqanları vasitəsilə həyata keçirirlər.

**Şəkil 13. Büdcə nəzarətinin formaları, obyektləri, növləri və metodları**




Mənbə: (Komyaqin D.L., 2017).

Azərbaycanda belə bir konstitusion orqan Azərbaycan Respublikasının Hesablama Palatasıdır və o, məhz büdcə sahəsində nəzarəti həyata keçirmək məqsədilə yaradılmışdır.

AR Hesablama Palatası nümayəndəli (qanunverici) hakimiyyət orqanı tərəfindən yaradılan, ona hesabat verən və daimi fəalıyyət gostərən dövlət maliyyə nəzarətı orqanıdır.

Bu ali nəzarət qurumunun əsas vəzifələrınə dövlət büdcəsinin və budcədənkənar fondların büdcələrinın gəlir və xərc maddələrinin icrasına nəzarətin təşkili və reallaşdırılması, dövlət əmlakından istifadənin və dövlət vəsaitlərinin xərclənməsinin məqsədəuyğunluğunun və səmərəliliyinin müəyyən edilməsi, büdcənin icrası ilə əlaqədar nümayəndəli hakimiyyət orqanına müntəzəm məlumatların verilməsi, müəyyən edilmiş büdcə göstəricilərindən kənarlaşmaların təhlili və onların aradan qaldırılmasına yönəldilmiş təkliflərin hazırlanması, qanun layihələrinin maliyyə ekspertizasının keçirilməsi və s. aid edilir ("Hesablama Palatası haqqında" AR Qanunu – 29.06.2018).

AR Hesablama Palatası nəzarət-təftis, ekspert-analitik, informasiya və digər fəaliyyətləri həyata keçirməklə dövlət büdcəsinin və büdcədənkənar fondların büdcələrinin icrasına vahid nəzarət sistemini təmin edir.

**Şəkil 14. Büdcə nəzarətini həyata keçirən strukturlar**




Mənbə: (Komyaqin D.L., 2017).

Hesablama Palatasının nəzarət səlahiyyətləri ölkənin bütün dövlət qurumlarına və təşkilatlarına, büdcədənkənar fondlara, eləcə də yerli özünuidarəetmə orqanlarına, mülkiyyət formasından asılı olmayaraq dövlət büdcəsindən vəsait alan bütün müəssisələrə, təşkilatlara, banklara, sığorta şirkətlərinə və digər maliyyə-kredit orqanlarına şamil olunur.

**Şəkil 15. Büdcə nəzarətinin növləri və orqanları**




Mənbə: (Komyaqin D.L., 2017).

Müasir şəraitdə dövlət budcəsinə nəzarətın həyata kecirilməsində mərkəzi icra hakimıyyəti orqanları AR-nın Maliyyə Nazirliyi və onun muvafiq strukturları, Vergilər Nazirliyi, Gömrük Komitəsi və digər orqanlar da aparıcı rol oynayırlar.

Onu da qeyd edək ki,bu orqanların hər biri öz səlahiyyətləri daxilində nəzarəti həyata keçirirlər.

Maliyyə orqanları büdcə layihələrinin hazırlanması və icrasına, dövlət büdcəsindən ayrılan vəsaitlərin məqsədəuyğun istifadəsinə sistematik nəzarət edir,

maliyyə-büdcə intizamına riayət olunmasını yoxlayır və digər nəzarət fəaliyyətlərini həyata keçirirlər.

AR-nın Maliyyə Nazirliyi çərçivəsində operativ malıyyə nəzarətini Dövlət Maliyyə Nəzarəti Xidmətı və Dövlət Xəzinədarlıgı Agentliyi həyata keçirirlər. Hər iki orqan ölkə başçısının "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinın təkmilləşdirilməsi tədbirləri haqqında" 09 fevral 2009-cu iltarixli 48 nömrəli Fərmanı ilə yaradılmışdır (http://www.maliyye.gov.az/).

Dövlət Maliyyə Nəzarəti Xidməti büdcədən ayrılan vəsaitlərin təyinatı uzrə səmərəli xərclənməsi üzərində dövlət malıyyə nəzarətini həyata keçirən əsas icra hakimiyyəti orqanıdır (http://www.maliyye.gov.az/).

Haqqında bəhs etdiyimiz bu qurum dövlət büdcəsi vəsaitlərinın və büdcədənkənar dövlət fondlarının vəsaitlərinin,o cümlədən dövlət büdcəsindən verilən subvensiyaların, büdcələrarası subsidiyaların, digər subsidiyaların, büdcə kreditlərinin istifadəsinə nəzarəti həyata keçirir.

AR Maliyyə Nazirliyinin bu struktur bölməsı həmçinin ölkədə dövlət maliyyə nəzarətinin heyata keçirilməsi işinə metodiki rəhbərlık edir, bu sahədəki nöqsanları və neqativ halları yaradan səbəblərin aradan qaldırılması məqsədilə davamlı tədbirlər görür.

**Şəkil 16. Büdcə nəzarətinin metodları və yekun sənədləri**




Mənbə: (Komyaqin D.L., 2017).

Qeyd olunan Xidmət maliyyə nəzarətini əsasən təftiş və yoxlamalar aparmaq yoluyla həyata keçirir. Aparılan yoxlamalarda adətən aşağıdakı məsələlərə xüsusi diqqət yetirilir: büdcə vəsaitlərinin məqsədli və səmərəli xərclənməsinə,xərc smetası və ştat cədvəllərinin duzgün tərtibi və icrası vəziyyətinə, ştat vahidlərinin mövcud normativ-hüquqı aktlara uğunluğuna, əmək haqqı fondunun istifadəsinə, malların (iş və xidmətlərin)satınalınmasının normativ-hüquqi aktların tələblərinə uyğunluğuna, debitor və kreditor borclarının yaranma səbəbləri və reallığının dəqiqləşdirilməsinə, maddi qiymətlilərin uçotdan silınməsi qaydalarına əməl olunmasına və s (http://www.maliyye.gov.az/).

Onu da qeyd edək ki, son illərdə büdcə sahəsində nəzarəti həyata keçirən orqanların apardıqları yoxlamalarda xərclər smetasında nəzərdə tutulmyan və funksional fəaliyyətə aid edılməyən istiqamətlərə vəsaitin yönəldilməsi, malların (iş və xidmətlərın) satın alınması zamanı mövcud qanunvericilıyin tələblərinə riayət olunmaması, malların, işlərin,xidmətlərin dəyərinin əsassız olaraq artırılması, əməyin ödənillməsi sahəsində tarif və ixtisas dərəcələrinın, habelə əlavələrin düzgün hesablanmaması,dövlət qulluğu sahəsində mövcud normativ-

huquqi aktların tələblərinə riayət olunmaması ilə bagl nöqsanlar üstünlük təşkil etmişdir (http://www.maliyye.gov.az/).

Ötən ilin ilk yarım illiyində Dövlət Maliyyə Nəzarti Xidməti tərəfindən reallaşdırılan 23 nəzarət tədbiri ilə məhz yuxarıdakı nöqsanların nəticəsi kimi 3077,9 min manat məblegində artıq və əsassız ödənişlərin həyata keçirildıyi askarlanaraq həmin məbləğin 1540,3 min manatının budcəyə bərpası təmin edilmiş, 1443,1 min manatıq mənimsəmə hallarına görə isə yoxlama materialları aidiyatı orqanlara göndərilmisdir (http://www.maliyye.gov.az/).

Hesablama Palatası tərəfindən isə anoloji dövrdə həyata keçirilən 17 nəzarət tədbiri ilə qeyd olunan nöqsanlarla bağlı ümumilikdə 232 halda nöqsan muəyyən edilmiş və 2,2 mln. manat məbləğində vəsaitin dovlət büdcəsinə, 87,2 min manat məblegində vəsaitin isə büdcədənkənar fondların büdcəsinə bərpası təmin edilmişdir (http://sai.gov.az/1/nesr/27).

**Cədvəl 7. Hesablama Palatası tərəfindən 2013-2017-cı illərdə bərpa edilmış vəsaitlər**

| 2013-2017-ci illərdə həyata keçirilmiş nəzarət tədbirlərinin nəticələrinə əsasən dövlət büdcəsinə və budcədənkənar fondlara bərpa edilmiş vəsaitlər | | |
|---|---|---|
| Dövlət büdcəsinə (min manat) | | DSMF-in büdcəsinə(min manat) |
| 4555,3 | 2013 | 196,1 |
| 8683,9 | 2014 | 62,5 |
| 10286,7 | 2015 | 266,0 |
| 11256,4 | 2016 | 282,0 |
| 16918,2 | 2017 | 1120,9 |
| 2200,0 | 2018 ilk altı ay | 87,2 |

Mənbə: Cədvəl 7 http://sai.gov.az/ internet resursunun məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Büdcə vəsaitlərinə dövlət maliyyə nəzarətini həyata keçirən icra hakimiyyəti organlarından bir digəri Dövlət Xəzinədarlığı Agentliyidır.

Bu qurum büdcənin kassa icrasını, dövlətin gəlir və xərclərinin və digər mərkəzləşdirilmiş resurslarının idarə edilməsini həyata keçirdiyindən büdcə prosesində olduqca əhəmiyyəli rol oynayır.

Dövlət Xəzinədarlıgı Agentliyi büdcənin kassa icrasını təşkil və təmin edir, büdcə vəsaitləri ilə əməliyyatlar həyata keçirir və həmin əməliyyatların uçotunu aparır, xərclər üzrə dövlətin adından büdcə təşkılatları qarşısında öhdəlikləri qəbul edir, respublikada dövlətə məxsus maliyyə vəsaitlərinin bir mərkəzdən idarə edilməsi, bu vəsaitlərın daxil olması və məqsədyönlü istifadəsi sahəsində cari maliyyə nəzarətini həyata keçirir (http://www.maliyye.gov.az/).

Dövlət Xəzinədarlığı Agentliyinin fəaliyət istiqamətlərinə müvafiq olaraq onun aşağıdakı vəzifələri müəyyən edilir:

- dövlət büdcəsinin icrasına dair hesabat sənədlərini hazırlamaq və büdcənin kassa icrasını həyata kecirmək;

- büdcənin icrası üzrə xəzinə əməliyyatlarnın uçotu və hesabatı işlərinin təskilinə metodiki rəhbərliyi həyata keçirmək;

-büdcəyə bütün daxilolmalar, büdcədənkənar haqlar,büdcədənkənar fondlar, məqsədli büdcə fondları, dövlət büdcəsi kəsirinin örtülməsi üçün dövlət təminatı ilə alınan kreditlər üzrə maliyyə əməlıyyatlarını və digər dövlət maliyyə əməliyatlarını qanunvericiliklə müəyyən edilmiş qaydalara uygun olaraq həyata keçirmək;

- dövlət büdcəsinə daxilolmaların vəziyyətindən asılı olaraq, eləcə də büdcə kəsiri nəzərə alınmaqla (müdafıə olunan xərc maddələri istisna olmaqla)təsdiq olunmuş dövlət büdcəsində nəzərdə tutulmus xərcləri maliyyələşdirmək;

-dövlət büdcəsinin xərcləri üzrə dövlətin adından budcə təşkilatları qarşısında öhdəliklər götürmək, bu öhdəliklər əsasında alınmış mal, iş və xidmərləri xəzinə uçotuna qəbul etmək, kassa xərcləri aparmaq;

- büdcədə nəzərdə tutulmuş tədbirlərin maliyyələşdırilməsi üzrə ayrılan vəsaitlərdən təyinatına görə istifadə olunmasına, həmçinin büdcədənkənar vəsaitlərin təsdiq edilmiş smetaya uygun istifadəsinə dövlət büdcəsinin kassa icrasıı prosesində cari nəzarəti yerinə yetirmək və s (http://www.maliyye.gov.az/).

## 2.2. Respublikada vergi nəzarətinin təşkili və müasir reallıqlar

Hazırki mürəkkəb iqtisadi şəraitdə dövlətin neft gəlirlərinin azaldığı, vergilərin büdcənin gəlir hissəsinin formalaşdırılmasındakı rolunun artdığı bir şəraitdə vergi nəzarətinin əhəmiyyəti dəfələrlə artır.

Vergi nəzarəti vergi sisteminin normal fəaliyyət göstərməsinin vacib şərtidir. Vergi nəzarətinin olmadığı və ya aşağı səmərəliliyi şəraitində vergilərin vaxtlı-vaxtında və tam həcmdə ödənilməsini gözləmək çox çətindir. Bu baxımdan vergi nəzarəti büdcənin gəlir hissəsinin təşkili, vergi intizamının təmin edilməsi, vergidən yayınma hallarının qarsısının alınması  nöqteyi-nəzərindən olduqca zəruridir.

Respublikamızda vergi nəzarətinin təşkili və müasir vəziyyətinin araşdırılmasına keçməzdən əvvəl vergi nəzarətinin məzmununun, rolunun və vəzifələrinin müəyyən edilməsi əhəmiyyətli olardı.

Vergi nəzarəti – vergi ödəyicilərinin, vergi agentlərinin müvafiq qanunvericiliyin tələblərinə riayət etmələrini müəyyən etmək məqsədilə səlahiyyətli orqanların həyata keçirdiyi dövlət nəzarətinin bir növüdür.

Daha geniş anlamda vergi nəzarəti vergi ödəyicilərinın və vergitutma obyektlərinin uçotu, müəyyən edilmiş vergilərin düzgün hesablanması və ödənilməsi, vergi daxilomalarının artırılması ehtiyatlarının aşkar edilməsi, vergi intizamının yaxşılaşdırılması və vergi ödəyiciləri tərəfindən vergi qanunvericiliyinə əməl olunmasının yoxlanılması üzrə səlahiyyətli dövlət orqanlarının fəaliyyətlərinin məcmusudur (Barulin S.V, Yermakova E.A, Stepanenko V.V., 2007).

Vergi nəzarəti vergi ödəyicilərinin, iqtisadiyyatın və cəmiyyətin dövlət hakimiyyət orqanları ilə əks əlaqəsini təmin edir. Ona görə də vergi nəzarəti vergitutmanın idarəedilməsinin yekun mərhələsidir, vergi mexanizminin elementlərindən biridir və vergi planlaşdırılması, vergi tənzimlənməsi ilə sıx bağlıdır (Barulin S.V, Yermakova E.A, Stepanenko V.V., 2007).

Vergi nəzarəti  yalnız vergi ödəyicilərinə nəzarəti deyil, həm də iqtisadiyyatda vergi axınlarının qanuniliyi və rasionallığının yoxlanılması və monitorinqi üzrə fəaliyyətləri də əhatə edir.

Azərbaycan Respublikasının vergi qanunvericıliyinə əsasən “vergi nəzarəti vergi ödəyiciləriinin və vergitutma obyektlərinin uçotuna, o cümlədən vergi qanunvericiliyinə əməl olunmasına vahid nəzarət sistemidır. Vergi qurumları vergilərin tam və vaxtında yıgılmasını təmin etmək üçün vergi nəzarətini həyata keçirirlər” (AR Vergi Məcəlləsi, 2000).

Vergi nəzarəti bütün səviyyəli büdcələrin gəlir hissəsinin formalaşdırılmasında yaxından iştirak etməklə, maliyyə resurslarının sosial, iqtisadi və digər islahatların həyata keçirilməsinə yönəldilməsinə şərait yaradır. Vergi nəzarətinin əsas vəzifələrini məhz bu baxımdan qanunla müəyyən edilmiş bütün vergilərin və ödənişlərin müxtəlif səviyyəli büdcələrə ödənilməsini təmin etmək və vergidən yayınmanın qarşısını almaq təşkil edir.

Vergi nəzarətinin obyekti dövlətin pul fondlarının təşkili prosesində yaranan imperativ pul münasibətləridir.

Vergi nəzarətinin subyektləri isə bilavasitə bu nəzarəti həyata keçirən səlahiyyətli dövlət orqanlarıdır. Vergi nəzarətində əsas iş onun subyektləri tərəfindən həyata keçirilir ki, onların da səlahiyyətləri, hüquqları Vergi Məcəlləsı ilə müəyyən olunur.

AR Vergi Məcəlləsinə əsasən vergı nəzarətini bu Məcəllədə və AR-nın Gömrük Məcəlləsində nəzərdə tutulmus hallarda və qaydada müvafıq icra hakimiyyəti orqanları həyata keçirilər. Yerli vergilərin  qanunvericiliyə uygun hesablanmasına, tam və vaxtında ödəniləmsinə nəzarəti isə bələdiyyələrin vergi xidməti orqanları həyata keçirirlər (AR Vergi Məcəlləsi, 2000).

Respublikada vergi qurumları bu nəzarəti vergı ödəyicilərinin və vergitutma obyektlərinın uçotunu aparmaqla,uçot və hesabat məlumatlarını yoxlamqla, vergi ödəyiciləri və vergi münasibətlərinin digər iştirakçıları arasında sorğu aparmaqla, gəlir əlsə etmək üçün istifadə olunan binalara*(tikililərə)* baxış keçirməklə və

qanunvericiliklə müəyyən edilmiş başqa formalarda həyata keçirirlər (AR Vergi Məcəlləsi, 2000).

Vergilərin yığılması işinin təşkilində başlanğıc nöqtəsi vergi ödəyicilərinin uçotudur. Vergi ödəyicilərinin uçotu – bütün vergi ödəyicilərinin (vergi agentlərinin) vergi orqanlarında qeydiyyatı, vergi ödəyiciləri haqqında məlumatların vahid dövlət reyestrində toplanması məqsədilə həyata keçirilən və vergi qanunvericiliyi ilə müəyyənləşdirilən tədbirlər kompleksidir.

Azərbaycanda vergi nəzarətinin həyata keçirilməsini təmın etmək məqsədilə vergi ödəyicisi olan hüquqi səxslər olduqları (dövlət qeydiyyatı üzrə sənədlərdə qeyd olunmuş huquqi ünvan), qeyri-rezident şəxslər Azərbaycan mənbəyindən gəlirin alındıgı yer üzrə, rezident fiziki şəxslər isə yaşadıqları yer üzrə vergi orqanlarnıda uçota alınır (AR Vergi Məcəlləsi, 2000).

**Şəkil 17. Vergi nəzarətinin formaları**




Mənbə: (Barulin S.V, Yermakova E.A, Stepanenko V.V., 2007).

Artıq qeyd etdiyimiz kimi vergi nəzarətinin əsas aparılma formalarından biri də vergi yoxlamalarıdır. Vergi yoxlamaları – vergilərin (ödənişlərın) düzgun hesablanması, tam və vaxtında ödənılməsi üzrə vergi orqanının prosesual hərəkətləridir.

Vergi yoxlamaları vergi nəzarəti nəticəsində əldə edilmiş faktiki məlumatların vergi orqanlarına təqdim edilmiş vergi bəyannamələrinin məlumatları ilə müqayisəsi yolu ilə həyata keçirilir.

AR vergi qanunvericiliyinə əsasən ölkədə aparılan vergi yoxlamaları səyyar və kameral yoxlamalar şəklində həyata keçirilir.

**Şəkil 18. Vergi nəzarətinin formaları**




Mənbə: (AR Vergi Məcəlləsi, 2000).

Kameral vergi yoxlamaları vergi orqanının yerləşdiyi yer üzrə ödəyicilərin təqdim etdikləri sənədlər, vergi bəyannamələri əsasında, eləcə də vergi ödəyicisinin fəaliyyətinə dair vergi orqanında olan başqa sənədlər əsasında keçirilir (AR Vergi Məcəlləsi, 2000).

Onu da qeyd edək ki,kameral vergi yoxlamaları vergi orqanının səlahiyyəli şəxsləri tərəfindən vergi orqanının rəhbərinin xüsusi qərarı olmadan vergi ödəyicisinin vergi bəyannaməsi və sənədlərini təqdim etməsindən sonrakı 30 iş günü ərzində həyata keçirilir (AR Vergi Məcəlləsi, 2000).

Kameral vergi yoxlamaları vergi nəzarəti baxımından mühüm əhəmiyyət kəsb edir. Bu cür yoxlamalar üçün səyyar yoxlamalardan fərqli olaraq o qədər də vaxt tələb olunmur. Səyyar vergi yoxlamaları ilə hər dördüncü və ya beşinci vergi ödəyicisi yoxlanıldığı halda kameral vergi yoxlamaları bütün vergi ödəyicilərinə münasibətdə həyata keçirilir.

**Şəkil 19. Kameral vergi yoxlamalarının məqsədləri**




Mənbə: (Barulin S.V, Yermakova E.A, Stepanenko V.V., 2007).

Hazırda bu cür yoxlamalar büdcənin doldurulmasında mühüm rol oynayır. Kameral vergi yoxlamalarının aparılması zamanı vergi bəyannamələrində aşkar edilən səhvlər büdcəyə ödənişlərin əhəmiyyətli dərəcədə artmasına səbəb olur.

Səyyar vergi yoxlamaları isə vergi orqanın rəhbərinin qərarı əsasında vergi ödəyicisinin (müəssisənin, təşkilatın) ərazisində həyata keçirilir. Vergi nəzarətinin bu forması aşağıdakıların yoxlanılmasını əhatə edir: ilkin mühasibat uçotu sənədlərinin, vergi bəyannamələrinin, təsərrüfat müqavilələrinin, yerinə yetirilmiş işlərə dair aktların, daxili sərəncamların və s.

**Şəkil 20. Səyyar vergi  yoxlamalarının keçirilməsi qaydaları**




Mənbə: (AR Vergi Məcəlləsi, 2000).

Ümumiyyətlə səyyar vergi yoxlamaları hazırda vergi nəzarətinin ən effektiv forma və metodlarından sayılır. Bu yoxlamalar vergi ödəyiciləri ilə sıx əlaqəni təmin edir, onlar haqqında daha səhih məlumatlar əldə etməyə imkan verir və vergi hüquq pozmalarının, vergidən yayınma hallarının qarşısının alınmasına istiqamətlənir.

Lakin bütün bunlara baxmayaraq  bu yoxlamaların sayı son illərdə əvvəlki illərlə müqayisədə əhəmiyyətli dərəcədə (3dəfəyədək) azalmışdır.  Bu  əsasən 2021-ci ilədək ölkədə illik dövriyyəsi 120 min manatan az olan sahibkarlıq subyektlərində  keçirilən yoxlamalara qoyulan moratorium ilə əlaqadardır.

Rəsmi məlumatlara əsasən keçən il ölkə üzrə cəmi 1400 səyyar vergi yoxlaması keçirilmişdir ki, bu da hər 300 vergi ödəyicisindən birının yoxlanılması

deməkdir. Son dörd-beş ildə ölkədə həyata keçirilən səyyar vergi yoxlamalarının sayını, tətbiq edilən sanksiya və cərimələrin ümumi məbləğini isə aşağıdakı cədvəldən müşahidə etmək olar.

**Cədvəl 8. 2014-2016-cı illərdə ölkədə aparılan səyyar vergi yoxlamaları barədə məlumat**

| Göstəricilər | 2014 | 2015 | Artım tempi %-lə | 2016 | Artım tempi %-lə |
|---|---|---|---|---|---|
| Keçirilən səyyar vergi yoxlaması | 11520 | 12219 | 5,7% | 7088 | - |
| Yoxlamaya sərf edilmiş iş gunlərinin sayı | 351602 | 342367 | - | 215876 | - |
| Hesablanmış əlavə vəsaıt, faiz, tətbiq edilmiş maliyyə sanksiaysı və cərimələr (min manat) | 905423,6 | 1064719,3 | 15% | 971990,2 | - |

Mənbə: Cədvəl 8. http://www.taxes.gov.az internet resursunun məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Cədvəl məlumatlarından da göründüyü kimi son illərdə ölkədə aparılan səyyar vergi yoxlamalarının sayında bir neçə dəfə azalma müşahidə olunur. Ancaq bu yoxlamaların yekunları üzrə vəziyyətə təsir etməmiş, daha doğrusu hesablanmış əlavə vəsait, tərbiq edilmiş maliyyə sanksiyaları və cərimələrin həcmi yoxlamaların azalmasına baxmayaraq dəyişməz olaraq qalmışdır. Bu isə ölkədə hələ də vergi hüquq pozmaları və vergidən yayınma hallarının kifayət qədər olmasını göstərir.

Respublikada aparılan səyyar vergi yoxlamalarının nəticələri isə vergi hesabatlarının qanunvericiliklə müəyyən edilmiş müddətlərdə vergi orqanlarına təqdim edilməməsi, vergilərin məbləğinin hesabatda düzgün göstərilməməsi (azaldılması), vergilərin yayındırılıması, malların (iş və xidmətlərın) dəyərindən əlavə dəyər vergisinin məbləğinin vaxtında ödənilməməsi ilə bağlı nöqsanların, hüquq pozmaların payının daha çox olmasını deməyə əsas verir.

Vergi qanunvericiliyinin pozulması, vergidən yayınma hallarının kifayət qədər olması ölkədə vergi nəzarətinin təkmilləşdirilməsi zərurətini də ortaya çıxarır. Bundan irəli gələrək ötən ilin sonlarında vergi qanunvericiliyinə çoxsaylı, əhəmiyyətli dəyişikliklər edilmişdir.

Ümumiyyətlə Vergi Məcəlləsinə edilən son dəyişikliklər 5 əsas istiqaməti əhatə etmiş və bunlardan da biri vergidən yayınmanın və "kölgə iqtisadiyatının" miqyasının azaldılması ilə əlaqədar olmuşdur. Qeyd olunanların aradan qaldırılması, yəni vergidən yayınmanın və "kölgə iqtisadiyyatının" miqyasının azaldılması üçün qanunvericiliyə edilən dəyişikliklərdə stimullaşdırıcı tədbirlərlə yanaşı qanunverciliyə əməl etməyən, məqsədli şəkildə vergidən yayınan şəxslərə qarşı sərt inzibati tədbirlərin tətbiqi də nəzərdə tutulur.

Bütövlükdə aparılan islahatlarda vergi nəzarəti üzrə uçot və qeydiyyat məsələlərinin təkmilləşdirilməsi, ticarət və xidmət obyektlərində yeni nəsil nəzarət-kassa aparatlarıının tətbiqi, vergidən yayınma hallarına yol verməmək üçün ictimai məlumatlandırma ("Whistleblow") sisteminin tətbiqi və sairə tədbirlər planlaşdırılır.

Ölkədə vergi nəzarətinin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması üzrə aşağıdakıların həyata keçirilməsi də məqsədəuyğun olardı:

-vergi cinayətləri və hüquq pozmalarının törədilməsinə görə məsuliyyətin sərtləşdirilməsi;

-elektron audıtin əhatə dairəsinin genişləndirilməsi və bu cür yoxlamaların daha da təkmilləşdirilməsi;

-vergi yoxlamalarının keyfiyyətinin, səmərəliliyinin artırılması məqsədilə vergi ödəyicilərinin risk meyarları əsasında qruplaşdırılmasına imkan yaradan risk qiymətləndirmə sisteminin hazırlanması;

-vətəndaşların vergi mədəniyyətinin artırılması istiqamətində tədbirlərin həyata keçirilməsinin davam etdirilməsi;

-bütün kateqoriyalı vergi ödəyiciləri üçün bərabər şəraitin yaradılması;

-vergi orqanları əməkdaşlarının bilik və bacarıqlarının artırılması, təkmilləşdirilməsi üzrə tədbirlərin hazırlanması və reallaşdırılması.

### 2.3. Dövlət maliyyə nəzarətinin səmərəliliyinin qiymətləndirilməsi

Müasir şəraitdə dövlət maliyyə nəzarətinin səmərəliliyinin qiymətləndirilməsi kifayət qədər mürəkkəb bir məsələdir və ona münasibət birmənalı deyil.

Dövlət maliyyə nəzarətinin səmərəliliyinin qiymətləndirilməsi həm dövlət maliyyə nəzarətinin ayrı-ayrı tədbirlərinin, həm də ayrı-ayrı dövlət maliyyə nəzarəti orqanlarının fəaliyyətlərinin keyfiyyət parametrlərini nəzərdən keçirməyə imkan verir.

Əksər hallarda dövlət maliyyə nəzarəti orqanlarının fəaliyyətinin səmərəliliyi aşkar edilmiş pozuntuların miqyası, bərpa edilmiş vəsaitlərin, eləcə də tətbiq edilmiş cərimə və sanksiyaların həcmi ilə ölçülür. Bu da bir daha dövlət maliyyə nəzarətinin səmərəliliyinin qiymətləndirilməsinə vahid və hamı tərəfindən qəbul edilən yanaşmanın formalaşdırılmasının zəruriliyini göstərir.

Istənilən fəaliyyətin, o cümlədən nəzarət fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi metodikasının hazırlanması olduqca çətin bir məsələdir. Ümumi qəbul edilmiş fikrə əsasən "səmərəli nəzarət" müasir nəzarət texnologiyaları əsasında həyata keçirilən real, effektiv, nəticəli, resurslara qənaət edən nəzarəti bildirir (www.cyberleninka.ru).

Səmərəlilik nəzarət fəaliyyətinin qiymətləndirilməsinin əsas meyarı və məqsədidir. Bu baxımdan demək olar ki, nəzarətin səmərəliliyi – nəzarət orqanının əldə etdiyi nəticələrin və onun məqsədinin, bu məqsədə nail olmaq üçün sərf edilən zaman, vasitə və resurslara nisbətidir.

S.O.Şoxin bu fikri inkişaf etdirərək qeyd edir ki, "nəzarətin səmərəliliyi onun nəticələrinin nəzarətin keçirilməsinə çəkilən xərclərə nisbəti ilə müəyyənləşdirilir. Səmərəliliyin artırılması üçün xərclərin azaldılması lazımdır" (www.cyberleninka.ru).

Lakin, təcrübə göstərir ki, xərclərin azaldılması heç də həmişə səmərəliliyin artmasına gətirib çıxarmır. Ona görə də xərcləri nəzarətin keyfiyyət və operativliyinə təsir etməyəcək səviyyədə tənzimləmək lazımdır.

Digər daha praqmatik yanaşmaya (V.Bursev) görə isə nəzarətin səmərəliliyi iki əsas göstərici əsasında müəyyən olunmalıdır:

-nəzarət tədbirləri üzrə dövlətə qaytarılan vəsaitlərin məbləği (nəzarət xərcləri çıxılmaqla);

-dövlətin maliyyə axınlarının və təsərrüfat subyektlərinin maliyyə-təsərrüfat fəaliyyətlərinin idarə olunması prosesində lazımsız xərclərin və digər çatışmazlıqların (analitik təhlillər, yoxlamalar, təftişlərin nəticəsində) önlənməsi, qarşısının alınması zamanı qənaət olunan vəsaitlərin məbləği (www.cyberleninka.ru).

**Şəkil 21. Dövlət maliyyə nəzarətinin səmərəliliyi**




Mənbə: Şəkil 21. www.cyberleninka.ru internet resursunun məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

İ.A.Belobjetski də nəzarətin səmərəliliyinin qiymətləndirilməsində bir göstəricini deyil, göstəricilər sistemini əsas götürür və həmin göstəricilər sisteminə aşağıdakıları daxil edir:

-nəzarət nəticəsində müəyyən olunan çatışmazlıqların, qeyri-qanuni xərclərin və mal-material, eləcə də pul vəsaitlərinin mənimsənilməsinin mütləq ölçülərini;

-dövlətə vurulan maddi zərərlərin ödənilmə dərəcəsini (www.cyberleninka.ru).

Göründüyü kimi hazırda dövlət maliyyə nəzarətinin səmərəliliyinin qiymətləndirilməsi üçün bir deyil, bir neçə göstəricidən istifadə olunması məqsədəuyğun hesab edilir. Onu da qeydedək ki, dövlət maliyyə nəzarətinin

səmərəliliyinin qiymətləndirilməsində birbaşa göstəricilərlə yanaşı, dolayı göstəricilərdən də istifadə olunur.

Məsələn, S.O.Şoxin dövlət maliyyə nəzarətinin (dövlətin nəzarət-hesablama orqanlarının fəaliyyətinin) səmərəliliyinin qiymətləndirilməsi üçün aşağıdakı dolayı göstəriciləri və meyarları müəyyən edir:

-nəzarət orqanlarının vəzifələrini, funksiyalarını icra etmə səviyyəsi;

-nəzarət funksiyalarının avtomatlaşdırılması səviyyəsi;

-büdcə vəsaitlərinin vaxtında və tam şəkildə köçürülməsi səviyyəsi;

-müəyyən bir hesabat dövrü üçün qeyri-səmərəli, məqsədsiz istifadə olunan xərclərin səviyyəsi.

**Şəkil 22. Dövlət maliyyə nəzarətinin səmərəliliyinin qiymətləndirilməsi göstəriciləri və kriteriyaları**




Mənbə: Şəkil 22. www.cyberleninka.ru internet resursunun məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Beləliklə bütün müəlliflər belə bir ortaq fikri qəbul edirlər ki, nəzarət məhsuldar və səmərəli olmalı və onun nəticələri həm keyfiyyət, həm də kəmiyyət baxımından qiymətləndirilməlidir. Kəmiyyət göstəriciləri nəzarətin keçirilməsi üçün zəruri olan məlumatların yığılması və təhlilini, keyfiyyət göstəriciləri isə nəzarətin məhsuldarlığını və qarşıya qoyulmuş məqsədlərin həyata keçirilməsinin effektivliyini əks etdirməlidir.

**Cədvəl 9. Maliyyə nəzarəti orqanının fəaliyyətinin qiymətləndirilməsi üzrə meyarlar**

| Kriteriyalar (meyarlar) | Müəyyən olunma formulu | Qeyd |
|---|---|---|
| Məhsuldarlıq | **Mm = MPm / BVm** | burada, Mm – məhsuldarlıq kriteriyası;<br>MPm –müəyyən edilmiş pozuntuların məbləği;<br>BVm – büdcə vəsaitlərinin məbləği |
| Büdcə vəsaitlərinin məqsədsiz istifadə edilməsi | **BVmi = Pm / P** | burada, Pm-büdcə vəsaitlərinin təyinatı üzrə istifadə edilməməsi ilə bağlı pozuntuların məbləği;<br>P - pozuntuların ümumi məbləği |
| Büdcə vəsaitlərinin qeyri-səmərəli istifadəsi | **BVqs == Pm / P** | burada, Pm-büdcə vəsaitlərinin qeyri-səmərəli istifadəsi üzrə pozuntuların məbləği;<br>P - pozuntuların ümumi məbləği |
| Təsirlilik | **Tm = q / Q** | burada, q – nəzarətin yekunları üzrə icra edilmiş qərar və göstərişlər;<br>Q – nəzarətin yekunları üzrə qəbul edilmiş qərar və göstərişlərin sayı |
| Iqtisadi səmərəliliyin qiymətləndirilməsi | **İs = İe / Xmn** | burada, İs-fəaliyyətin iqtisadi səmərəliliyi;<br>İe – nəzarət tədbirlərindən əldə olunan iqtisadi effekt;<br>Xmn –maliyyə nəzarəti orqanının saxlanmasına çəkilən xərclər |
| Dinamiklik | **Dm = Nz / Gnorma** | burada, Nz- nəzarət tədbirinin keçirilməsinə sərf olunan zaman;<br>Gnorma – normativ və ya plan göstəricisi |

Mənbə: Cədvəl 9. www.cyberleninka.ru internet resursunun məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Dövlət maliyyə nəzarəti orqanlarının fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsində hazırda beş əsas meyardan (kriteriyadan) istifadə olunması məqsədəuyğun hesab edilir:

-məhsuldarlıq;

-təsirlik;

-qənaətlik;

-intensivlik;

-dinamiklik.

Maliyyə nəzarəti orqanlarının fəaliyyətinin məhsuldarlığını müəyyən edilmiş pozuntuların məbləğini yoxlanılmış büdcə vəsaitlərinin ümumi məbləğinə bölməklə müəyyən edirlər:

$$Mm = MPm / BVm$$

burada, Mm – məhsuldarlıq meyarı;

MPm – müəyyən edilmiş pozuntuların məbləği;

BVm – yoxlama ilə əhatə olunmuş büdcə vəsaitlərinin məbləği (https://moluch.ru/archive/90/18832/).

Maliyyə nəzarəti orqanlarının fəaliyyətinin təsirliyini isə nəzarətin yekunları üzrə icra edilmiş qərar və göstərişlərin sayının qəbul edilmiş qərarların ümumi sayına bölməklə müəyyənləşdirmək olar:

$$Tm = q / Q$$

burada, Tm – təsirlik meyarı;

q – nəzarətin yekunları üzrə icra edilmiş qərar və göstərişlər;

Q – nəzarətin yekunları üzrə qəbul edilmiş qərar və göstərişlərin sayı (www.moluch.ru).

İqtisadi baxımdan maliyyə nəzarəti orqanlarının fəaliyyətinin təsirliyini həmçinin nəzarətin yekununda büdcəyə qaytarılan vəsaitlərin həcminə görə də qiymətləndirmək mümkündür. Bunu aşağıdakı kimi əks etdirmək olar:

$$BBvm = BBv / Bv$$

burada, BBvm – bərpa olunmuş büdcə vəsaitləri meyarı;

BBv – bərpa olunmuş büdcə vəsaitləri ;

Bv – büdcəyə qaytarılması təklif olunan vəsaitlərin həcmi.

Maliyyə nəzarəti orqanlarının fəaliyyətinin iqtisadi səmərəliliyi isə aşağıdakı kimi müəyyən olunur:

$$İs = İe / Xmn$$

burada, İs-fəaliyyətin iqtisadi səmərəliliyi;

İe – nəzarət tədbirlərindən əldə olunan iqtisadi effekt;

Xmn –maliyyə nəzarəti orqanının saxlanmasına çəkilən xərclər (www.moluch.ru).

Intensivlik meyarı maliyyə nəzarəti orqanının işlə yüklənmə səviyyəsini, nəzarətin sistematikliyini və ardıcıllığını xarakterizə edir. Bu meyarın qiymətləndirilməsi bütövlükdə maliyyə nəzarəti orqanı, eləcə də onun ayrıca bir fəaliyyət istiqaməti üzrə həyata keçirilə bilər (www.moluch.ru).

# FƏSİL 3. DÖVLƏT MALIYYƏ NƏZARƏTI SISTEMININ TƏKMILLƏŞDIRILMƏSI VƏ EFFEKTIVLIYININ ARTIRILMASI

## 3.1. Azərbaycanda dövlət maliyyə nəzarətinin əsas problemləri və çatışmazlıqları

Son dövrlərdə respublikada mütərəqqi və işlək dövlət maliyyə nəzarəti sisteminin formalaşdırılması istiqamətində xeyli işlər görülsədə, bu sahədə hələ də bir çox problem və çatışmazlıqlar qalmaqdadır.

Etiraf etmək lazımdır ki, ölkədəki mövcud maliyyə nəzarəti sisteminin səmərəliliyi, nəticəliliyi hələki qənaətbəxş səviyyədə deyil və bu da onun yenidən qurulmasını, təkmilləşdirilməsini zəruri edir.

Azərbaycanda demokratik cəmiyyətin tələblərinə cavab verən və ölkənin maliyyə sisteminin daha səmərəli inkişafına xidmət edən dövlət maliyyə nəzarətinin formalaşdırılması bu sahədə mövcud olan problemlərin, maneələrin tezliklə aradan qaldırılması və həllindən çox asılıdır.

Ümumiyyətlə hazırda maliyyə nəzarəti sahəsində mövcud olan problemləri iki qrupa ayırmaq olar:

-ölkədə maliyyə nəzarətinin həyata keçirilməsini tənzimləyən normativ-hüquqi baza ilə bağlı olan problemlər;

-maliyyə nəzarəti orqanlarının fəaliyyətlərindəki nöqsan və çatışmazlıqlarla bağlı olan problemlər.

Maliyyə nəzarətinin həyata keçirilməsini tənzimləyən normativ-hüquqi baza ilə əlaqədar olan problemlərin ilk sırasında maliyyə nəzarəti üzrə qanunun və ya konsepsiyanın olmaması yer alır.

Qeyd olunan problemi "Dövlət maliyyə nəzarəti haqqında" müvafiq qanunun hazırlanması və qəbulu yolu ilə həll etmək mümkündür. Bu qanunun qəbulu maliyyə nəzarətinin məqsəd və vəzifələri, prinsipləri, növləri, təşkilinin forma və metodları, dövlət maliyyə nəzarəti sisteminin strukturu, nəzarət orqanlarının fəaliyyət sferaları, səlahiyyət və hüquqları, dövlət auditinin aparılması

və nəticələrinin rəsmiləşdirilməsi qaydaları, eləcə də nəzarət orqanlarının qarşılıqlı əlaqə və koordinasiyası məsələlərinə ümumi yanaşmanın formalaşdırılması baxımından olduqca vacibdir.

Onu da qeyd edək ki,son illərdə Avropa ölkələrinin qabaqcıl təcrübəsinə əsaslanan müvafiq qanun layihəsi ölkədə ("Dövlət maliyyə nəzaərəti haqqında") işlənib hazırlansada onun qəbulu müəyyən səbəblərdən yubanır.

Maliyyə nəzarətinin normativ-hüquqi bazası ilə əlaqədar olan və dövlət maliyyə nəzarətinin effektivliyini azaldan problemlərdən biri də maliyyə-büdcə qanunvericilıyinin pozulmasına görə nəzərdə tutulan inzibati tədbirlərin lazımi qədər təsirli olmaması, tətbiq edilən cərimələrin məbləğinin az olması, bəzi istiqamətlər (satınalmalar) üzrə qanunvericiliyin tələblərinin pozulmasına görə isə ümumiyyətlə hər hansı bir cəza tədbirinin nəzərdə tutulmamasıdır.

Məsələn, AR Inzibati Xətalar Məcəlləsində dövlət büdcəsindən maliyyələşən təşkilatların maliyyə-təsərrüfat fəaliyyətlərində maliyyə qaydalarını pozmasına, habelə dövlət büdcəsi və büdcədənkənar fondlardan, eləcə də məqsədli büdcə fondlarından ayrılan vəsaitlərdən təyinatı üzrə istifadə etməməsinə, yaxud büdcədənkənar vəsaitlərini müvafiq orqanlarla razılaşdırılaraq təsdiq edilmiş smetaya uygun xərcləməməsinə, normativdən artıq ştat vahidləri saxlamasına görə (bu əməllər *iki* min manata qədər məbləğdə törədildikdə) onların vəzifəli şəxslərinə *dörd yüz manatdan səkkız* yüz manatadək məbləğdə cərimə müəyyən edilir (AR Inzibati Xətalar Məcəlləsi, 2015).

Müqayisə üçün Rusiya Federasiyasının müvafiq qanunvericiliyində anoloji qanun pozuntularına görə dövlət büdcəsindən maliyyələşən təşkilatların vəzifəli şəxsləri *iyirmi min rubldan əlli min rubladək (beş yüz iyirmi manatdan min üç yüz manatadək)* məbləgdə cərimə edilir (www.base.garant.ru).

Qazaxıstanın Inzibati Xətalar Məcəlləsində isə büdcə vəsaitlərinin məqsədsiz və qeyri-səmərəli istifadəsinə görə büdcə təşkilatlarının vəzifəli şəxslərinə *yüz iyirmi altı min tengedən yeddi yüz əlli yeddi min tengeyədək (alti yüz qırx manatdan üç min səkkiz yüz manatadək)* məbləğdə inzibati cərimə müəyyən edilir (www.online.zakon.kz).

Dövlət maliyyə nəzarəti orqanlarının keçirdikləri nəzarət tədbirlərinin yekunları üzrə aşkar edilmiş nöqsan və pozuntuların 21%-nin büdcə qanunvericiliyinin pozulması, 12,5%-nin vergi qanunvericiliyinin pozulması, 20,2%-nin mühasibat uçotu və hesabatlılıq, 7,7%-nin isə dövlət satınalmaları ilə əlaqədar olduğunu nəzərə alsaq, bu nöqsan və pozuntular üzrə inzibati tədbirlərin sərtləşdirilməsinə, cərimələrin məbləğinin daha da artırılmasına ehtiyac yaranır (AR Inzibati Xətalar Məcəlləsi, 2015).

Qeyd olunan tədbirlər fikrimizcə, dövlət vəsaitlərindən istifadənin effektivliyinin artırılmasına, şəffaflığın və hesablılıgının təmin edilməsinə, maliyyə inzibatçılığının gücləndirilməsinə və korrupsiya halları ilə daha səmərəli mübarizəyə kömək etmiş olar.

**Cədvəl 10. Dövlət maliyyə nəzarətinin təşkili problemləri və onların həlli yolları**

<table>
<tr><th>Dövlət maliyyə nəzarətinin təşkili problemləri</th><th>Dövlət maliyyə nəzarətinin problemlərinin həlli yolları</th></tr>
<tr><td>Struktur</td><td rowspan="6">✓ “Dövlət maliyyə nəzaərti haqqında” Qanunun qəbulu yolu ilə hüquqi bazanın formalaşdırılması<br>✓ dovlət maliyyə nəzarəti üzrə vahid konsepsıyanın hazırlanması<br>✓ nəzarət tədbirlərinin həyata keçirilməsinin ümumi standartlarının hazırlanması və tətbiqi<br>✓ vahid informasiya bazasının yaradılması</td></tr>
<tr><td>✓ dövlət maliyyə nəzarətinin təskilinin normativ-hüquqi bazasının olmaması<br>✓ dövlət maliyyə nəzarəti orqanlarının işində paralelizm<br>✓ nəzarət orqanlarının qarşılıqlı əlaqələrinin zəif olması</td></tr>
<tr><td>Metodoloji</td></tr>
<tr><td>✓ nəzarət tədbirlərinin keçirilməsinin vahid metodologiya və standartlarının olmaması</td></tr>
<tr><td>İnformasiya</td></tr>
<tr><td>✓ Aşkar olunmuş nöqsanlar, pozuntular barədə vahid informasiya bazasının olmaması<br>✓ Təcrübə mübadiləsi baxımından beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqələrin zəif olması</td></tr>
</table>

Mənbə: Cədvəl 10. www.studyi.ru internet resursunun məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Maliyyə nəzarəti sahəsindəki problem və çatışmazlıqların sırasına maliyyə nəzarəti orqanlarının hazırda nəzarətin keçirilməsinə dair vahid standart və qaydalarının işlənib hazırlanmamasını da aid etmək olar.

Məlum olduğu kimi, bu günkü gün dövlət maliyyə nəzarəti sistemi bir çox nəzarət-təftiş orqanlarını özündə birləşdirir və onların da hər birinin xüsusi məqsəd və vəzifələri vardır. Lakin nəzarət orqanlarının və nəzarət olunan təşkilatların müxtəlifliyinə baxmayaraq nəzarət fəaliyyətlərinin məqsədi demək olar ki, eynidir. Bu baxımdan nəzarət tədbirlərinin keçirilməsi zamanı vahid qaydaların və standartların əsas götürülməsi olduqca vacibdir.

Dövlət maliyyə nəzarəti orqanlarının hər biri hal-hazırda nəzarət tədbirlərinin həyata keçirilməsində öz daxili qaydalarını, metodiki və təlimat xarakterli digər sənədlərini əsas götürürlər ki, bu da nəzarət orqanları arasında əlaqəsizliyə, nəzarət fəaliyyətlərinin səmərəliliyinin, nəticəliliyinin, şəfaflığının azalmasına gətirib çıxarır.

**Şəkil 23. Dövlət maliyyə nəzarətinin ümumi standartları**




Mənbə: Şəkil 23 www.cyberleninka.ru internet resursunun məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Ona görə də dövlət maliyyə nəzarəti sistemində nəzarətin keçirilməsinə dair vahid qaydaların, standartların qəbulu nəzarətin planlaşdırılması, keçirılməsi, nəticələrinin rəsmiləşdirilməsi və səmərəliliyinin qiymətləndirilməsinə vahid tələblərin müəyyənləşdirilməsinə imkan verməklə, məhz yuxarıda qeyd olunan nöqsanların aradan qaldırılmasına da şərait yaradar.

Onu da qeyd edəkki, dövlət maliyyə nəzarətinin standartlarının hazırlanması zamanı onların tətbiq sahəsini dəqiq müəyyənləşdirmək, eləcə də məcburi və tövsiyyə xarakterli standartları fərqləndirmək lazımdır.

Dövlət maliyyə nəzarəti orqanlarının fəaliyyətinin vahid standartları kifayət qədər aydın və istifadə üçün rahat olmalı, eləcə də dəqiq iyerarxik quruluşa malik olmalıdır.

Dövlətin maliyyə nəzarəti sistemində vahid standartların, qaydaların hazırlanması və tətbiqi nəzarət orqanlarının inteqrasiyasının güclənməsinə təkan verməklə, maliyyə-büdcə nəzarəti sahəsində ümumi məlumat bazasının yaradılmasına imkan verər, bu isə öz növbəsində dövlət maliyyə nəzarəti sisteminin bütün struktur elementlərinin səmərəli fəaliyyətinə də yardım etmiş olar.

Müasir mərhələdə dövlət maliyyə nəzarətinin problemlərindən bir digəri nəzarət orqanları arasında qarşılıqlı əlaqələrin zəif təşkili və fəaliyyətlərinin uzlaşdırılmamasıdır. Bu baxımdan dövlətin maliyyə nəzarəti sisteminə daxil olan nəzaərt qurumlarının hər biri öz fəaliyyətini uygun şəkildə planlaşdırmaqla, digər orqanlarla birgə əməkdaşlığın qurulmasına çalışmalıdır. Habelə nəzarət orqanlarının fəaliyyətlərində şəffaflıgın və obyektivliyin artırılması, həmin orqanların nəzarətin obyekti olan dövlət orqanları və təşkilatları ilə əməkdaşlığının genişləndirilməsi də zəruridir.

Azərbaycanın maliyyə nəzarəti sıstemində tam aradan qaldırılmayan təkrarcılıq və paralel yoxlamalar da malıyyə nəzarətinin effektivliyinə təsir edən və bu sistemdə var olan problemlər sırasına aid oluna bilər. Qeyd etdiyimiz bu problem əsasən dövlət maliyə nəzarəti orqanlaının fəaliyyət dairələrinin, məsuliyyətinin sərhədlərinin dəqiq müəyyən olunmaması və fəaliyyətlərinin zəif

koordinasiya olunmasından qaynaqlanır. Ona görə də bu problemin aradan qaldırılması üçün nəzarət orqanlarının fəaliyyətinin sərhədləri dəqiqləşdirilməli və hər bir orqanın öz nəzarət sahəsi üzrə məsuliyyəti saxlanılmaqla onların öz aralarında daha sıx əməkdaşlığı təmin edilməlidir.

Beləliklə, ölkənin dövlət maliyyə nəzarəti sistemindəki problemlərin, çatışmazlıqların araşdırılması aşağıdakıları müəyyən etməyə imkan verir:

- ölkədəki mövcud maliyyə nəzarəti sisteminin səmərəliliyi, nəticəliliyi hələki qənaətbəxş səviyyədə deyil və bunun öz obyektiv səbəbləri vardır;

- demokratik cəmiyyətin tələblərinə cavab verən və ölkənin maliyyə sisteminin daha səmərəli inkişafına xidmət edən dövlət maliyyə nəzarətinin formalaşdırılması bu sahədə mövcud olan problemlərin, maneələrin tezliklə aradan qaldırılması və həllindən çox asılıdır;

-dövlət maliyyə nəzarətinin problemlərinin ilk sırasında maliyyə nəzarəti üzrə qanunun və ya konsepsiyanın hazırlanmaması yer alır;

- dövlət maliyyə nəzarətinin effektivliyini azaldan problemlərdən biri də maliyyə-büdcə qanunvericilıyinin pozulmasına görə nəzərdə tutulan inzibati tədbirlərin lazımi qədər təsirli olmaması, tətbiq edilən cərimələrin məbləğinin az olması, bəzi istiqamətlər üzrə qanunvericiliyin tələblərinin pozulmasına görə isə ümumiyyətlə hər hansı bir cəza tədbirinin nəzərdə tutulmamasıdır;

-dövlət maliyyə nəzarəti orqanlarının fəaliyyətlərinin zəif koordinasiya olunması, vahid informasiya bazasının yaradılmaması, nəzarətin keçirilməsinə dair ümumi standart və qaydalarının işlənib hazırlanmaması, kadr təminatının və hazırlıgının qənaətbəxş olmaması və s. müasir mərhələdə ölkənin dövlət maliyyə nəzarəti sisteminin həlli vacib problemləri sırasındadır və onların aradan qaldırılması nəzarət sisteminin fəaliyyətinin səmərəliliyinin artırılması baxımından olduqca əhəmiyyətlidir.

## 3.2.Müasir iqtisadi şəraitdə dövlət maliyyə nəzarətinin təkmilləşdirilməsi istiqamətləri

Ölkənin sosial –iqtisadi quruluşunda və iqtisadiyyatı idarəetmə metodlarındakı köklü dəyişikliklər maliyyənin idarə edilməsinin vacib vasitələrindən biri kimi dövlət maliyyə nəzarətinin təkmilləşdirilməsini qaçılmaz edir. Müasir iqtisadi reallıqlar əsasında təkmilləşdirilən, yenidən qurulan dövlət maliyyə nəzarəti iqtisadi islahatların uğurunun zəruri şərtlərindən və iqtisadi sahədə korrupsiya və hüquq pozmalarla mübarizədə vacib alətlərdən biri sayılır.

Bu cür dövlət maliyyə nəzarətinin formalaşdırılması həmçinin Azərbaycan iqtisadiyyatının davamlı inkişafının təmin edilməsi baxımından da olduqca mühüm əhəmiyyət kəsb edir.

Respublikada dövlət maliyyə nəzarətinin təkmilləşdirilməsi üçün fikrimizcə, aşağıdakı istiqamətlər üzrə bir sıra kompleks tədbirlərin, fəaliyyətlərin reallaşdırılması zəruridir:

1)dövlət maliyyə nəzarətinin normativ-hüquqi və metodiki bazasının formalaşdırılması;

2) dövlətin maliyyə təhlükəsizliyinin təmin edilməsində dövlət maliyyə nəzarətinin rolunun artırılması.

Azərbaycanda dövlət maliyyə nəzarətinin təkmilləşdirilməsi istiqamətlərindən biri və ən əsası nəzarətinin normativ-hüquqi və metodiki bazasının formalaşdırılması, yeniləşdirilməsi hesab edilir. Bu istiqamətdə, yəni, səmərəli dövlət maliyyə nəzarəti sisteminin qurulması istiqamətində atılacaq ən mühüm addım bir sıra qanunların, normativ sənədlərin hazırlanması və qəbulu ola bilər. Məsələn, hazırda respublikada “Dövlət maliyyə nəzarətı haqqında” Qanunun qəbuluna böyük ehtiyac vardır.

Çünki, maliyyə nəzarəti üzrə mövcud qanunvericilik aktlarında hazırda nəzarətin terminologıya və metodologiyası, habelə digər məsələlərlə bağlı bir çox qeyri-müəyyənliklər, çatışmazlıqlar mövcuddur. Bu isə nəzarət qurumları, eləcə də

nəzarət obyektləri və cəmıyyət arasında bir çox anlaşılmazlıqların meydana gəlməsinə səbəbiyyət verir.

Qeyd olunan qanunun qəbulunun məhz yuxarıda göstərilən çatışmazlıq və qeyri-müəyyənliklərin arada qaldırılması, yəni, dövlət maliyyə nəzarətinin forma və metodlarının, prinsiplərinin, kənar və daxilı nəzarət mexanizmlərinin, nəzarətin səmərəlilik meyarlarının müəyyən edilməsi, nəzarət orqanlarının səlahiyyətlərının, fəaliyyət dairələrinin dəqiqləsdirilməsi, onlar arasında qarşılıqlı əlaqələrin qurulması və inkişafı baxımından böyük əhəmiyyəti olar.

Azərbaycanda dövlət maliyyə nəzarətinin təkmilləşdirilməsi nəzarət fəaliyyətinin standartlarının hazırlanması kimi aktual problemin həllini də tələb edir. Bu baxımdan ölkədə maliyyə nəzarətinin bütün növləri və istiqamətlərini üzvi şəkildə birləşdirən vahid, unifikasiya olunmuş standartlar sistemi hazırlanmalıdır.

Ümumi müddəaları və prosedurları müəyyən edən standartlar hər bir maliyyə nəzarəti növünün (dövlət, daxili, audit) xüsusiyyətlərini əks etdirən digər standartların işlənməsi üçün də baza ola bilər.

Məlum olduğu kimi hazırda hər bir dövlət maliyyə nəzarəti orqanının nəzarət fəaliyyətinin metodiki təminatını, bir qayda olaraq, bu orqanların özləri tərəfindən müstəqil şəkildə hazırlanmış qaydalar, təlimatlar, tövsiyyələr təşkil edir. Bu baxımdan dövlət maliyyə nəzarətinin metodiki təminatının da standartlaşdırılması və unufikasiyası həyata keçirilməlidir.

Dövlət maliyyə nəzarətinin vacib təkmilləşmə istiqamətlərindən biri də kənar və daxili dövlət maliyyə nəzarəti orqanlarının səlahiyyətlərinin, fəaliyyət dairələrinin dəqiq müəyyənləşdirilməsi olmalıdır. Təəssüf ki, bü günkü gün bu sahədə müəyyən boşluqlar, qeyri-müəyyənliklər mövcuddur və onların aradan qaldırılması dövlət maliyyə nəzarətinin səmərəliliyinin artırılması baxımından əhəmiyyətli olar.

Dövlət maliyyə nəzarəti orqanlarının sistem daxilindəki qarşılıqlı əlaqələrinin gücləndirilməsi, eləcə də hüquq-mühafizə və qeyri-dövlət maliyyə

nəzarəti orqanları ilə qarşılıqlı əlaqələrinin daha da inkişaf etdirilməsi dövlət maliyyə nəzarətinin təkmilləşdirilməsinin digər başlıca istiqamətlərindən sayılır.

Çünki müasir şəraitdə bu orqanlar arasında qarşılıqlı əlaqələr lazımı səviyyədə qurulmamışdır, kifayət qədər məhsuldar deyildir və bu da müxtəlif nəzarət orqanları arasındakı qarşılıqlı əlaqələrin inkişafını, keyfiyyətcə yeni səviyyəyə qaldırılmasını zəruri edir.

Eyni zamanda dovlət və qeyri-dövlət (audit) nəzarətı arasında qarsılıqlı əlaqə və dəqiq səlahiyyət bölgüsunün aparılmasına da ehtıyac vardır və bu bütovlükdə nəzarət sisteminin səmərəliliyinin gücləndirilməsi və şəffaflığının artırılmasına sərait yaratmış olar.

Dövlət vəsaitlərinin xərclənməsinin səmərəliliyinin artırılması məqsədilə nəzarətin təkmilləşdirilməsinin perspektiv istiqamətlərindən digəri dövlət xərclərinin effektivlik audıtinə keçidinin təmin edilməsi hesab olunur. Səmərəlilik və ya effektivlik auditi nəzarət orqanlarının fəaliyyətinin bir istiqamətini təşkil edir, dövlət vəsaitlərindən istifadənin səmərəliliyi və qənaətliliyinin müəyyən edilməsini nəzərdə tutur və xərclərin əsaslılığını qiymətləndirməyə imkan verir.

Onu da qeyd edə ki, hazırda dövlət xərclərinin səmərəlilik auditinin keçirilməsinin vahid metodikası mövcud deyildir, dövlət vəsaitlərindən istifadənin səmərəliliyinin meyarları və göstəriciləri də müəyyənləşdirilməmişdir. Bu baxımdan dövlət maliyyə nəzarətinin təkmilləşdirilməsi və effektivliyinin artırılması üçün dövlət vəsaitlərindən və əmlakından istifadənin səmərəlilik meyarları və göstəriciləri müəyyən olunmalı və onların qeyri-səmərəli istifadəsinə görə məsuliyyət dəfələrlə artırılmalıdır.

**Şəkil 24. Dövlət maliyyə nəzarətinin təkmilləşdirilməsi istiqamətləri**

**Dövlət maliyyə nəzarətinin təkmilləşdirilməsi istiqamətləri**

↓

**Dövlət maliyyə nəzarətinin normativ – hüquqi bazasının təkmilləşdirilməsi**

↓

**Dövlət maliyyə nəzarətinin standartlaşdırılması**

↓

**Vahid informasiya bazasının yaradılması**

↓

**Dövlət vəsaitlərindən və əmlakından istifadənin səmərəlilik meyarları və göstəricilərinin müəyyən olunması, dövlət xərclərinin effektivlik auditinə keçidinin təmin edilməsi**

Mənbə: (www.studyi.ru).

Müasir mərhələdə dövlət maliyyə nəzarətinin təkmilləşdirilməsinin bir başqa vacib istiqamətini müasir informasiya texnoligiyalarından istifadənin genişləndirilməsi təşkil etməlidir. Qabaqcıl texnologiyalar əsasında dövlət hakımiyyəti və maliyyə nəzarəti orqanlarının fəaliyyətinin informasiyalaşdırılması nöqsanları, pozuntuları vaxtında müəyyən etməklə dövlət resurslarından istifadənin səmərəliliyinin artırılmasına əlverişlı şərait yaradar (www.studyi.ru).

Beləliklə, qeyd etdiklərimiz əsasında dövlət maliyyə nəzarətinin təkmilləşdirilməsi üçün aşağıdakıların həyata keçirilməsini məqsədəmüvafiq hesab edirəm:

-nəzarət fəaliyyətinin qanunvericilik bazasının formalaşdırılması və təkmilləşdirilməsi üçün əsas olacaq dövlət maliyyə nəzarətinin konsepsiyasını hazırlamaq;

- dövlət maliyyə nəzarətinin konsepsiyası əsasında qısamüddətli və ortamüddətli dövr üçün dövlət maliyyə nəzarətinin ümumi inkişaf strategiyasını qəbul etmək;

- ümumi və daxili standartların qəbul edilməsi yolu ilə dövlət maliyyə nəzarətinin standartlaşdırılması prosesini başa çatdırmaq;

-nəzarət orqanlarının fəaliyyət istiqamətləri və tabeçiliyindən asılı olmayaraq, nəzarət orqanlarının vahid informasiya bazasını yaratmaq;

- dövlət hakimiyyəti strukturuna müvafiq olaraq dövlət maliyyə nəzarəti orqanlarının funksiyalarını məhdudlaşdırmaq;

- təqvim ilinin əvvəlinə iş planlarının razılaşdırılması yolu ilə nəzarət tədbirlərinin təkrarlanmasının qarşısını almaq;

-dövlət maliyyə nəzarəti orqanları arasında qarşılıqlı əlaqələri inkişaf etdirmək və onların fəaliyyətlərinin uzlaaşdırılmasına nail olmaq;

- nəzarət işlərini həyata keçirən mütəxəssislərin hazırlanması, peşəkarlıqlarının artırılması yolu ilə dövlət maliyyə nəzarətinin kadr təminatını ən yüksək səviyyəyə çatdırmaq;

- beynəlxalq əməkdaşlığı gücləndirmək, bu sahədə fikir və təcrübə mübadiləsi aparmaq.

Dövlət maliyyə nəzarətinin təkmilləşdirilməsi üzrə təklif olunan bu istiqamətlərin reallaşdırılması Azərbaycanda dövlət maliyyə nəzarətinin bütöv sistem kimi fəaliyyətini təmin etməyə, eləcə də dövlətin maliyyə resurslarının idarə edilməsini keyfiyyətcə yeni səviyyəyə qaldırmağa imkan verəcək, həmçinin maliyyə təhlükəsizliyinin təmin olunmasında dövlət maliyyə nəzarətinin rolunu daha da gücləndirəcəkdir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

1. Respublikanın müasir inkişaf mərhələsi iqtisadiyyatın idarə edilməsi sistemində dövlətin rolunun artırılması, iqtisadi sahədə qanun pozuntuları və korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi meylləri ilə səciyyələnir. Belə bir şəraitdə maliyyə nəzarətinin əhəmiyyəti və rolu obyektiv olaraq artır.

Maliyyə nəzarəti bir tərəfdən maliyyənin idarə edilməsinin yekun mərhələsi, digər tərəfdən isə maliyyənin effektiv idarə edilməsinin zəruri şərti kimi çıxış edir. O, bütövlükdə maliyyə sisteminin etibarlı fəaliyyətini, dövlətin maliyyə siyasətinin uğurla həyata keçirilməsini təmin etməklə, istənilən səviyyədə effektiv maliyyə idarəetməsinə xidmət edir və maliyyə təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.

Müasir mərhələdə Azərbaycanda maliyyə nəzarətinin inkişafında yeni meyllər müşahidə olunur. Məsələn, dövlət maliyyə nəzarətinin əhatə dairəsi tədricən daralır. O, getdikcə daha çox makroiqtisadi proseslər, yəni UDM, pul kütləsi, dövlətin pul vəsaitləri fondlarının təşkili və istifadəsi üzərində yoğunlaşır. Eyni zamanda qeyri-dövlət maliyyə nəzarətinin əhatə dairəsi genişlənir və məzmunu isə dəyişir.

2. Maliyyə nəzarəti tarixən dövlət xəzinəsindən vəsaitlərin xərclənməsinə nəzarətin həyata keçirilməsi zərurəti ilə əlaqədar olaraq yaranmışdır. Maliyyə münasibətlərinin inkişafı, vergi, büdcə, bank sistemlərinin yaranması, maliyyə əlaqələrinin dərinləşməsi ilə maliyyə nəzarətinin tətbiq sferaları da tədricən genişlənmiş və onun yeni, müasir növləri, formaları yaranmışdır.

Maliyyə nəzarətinin formaları – bu nəzarət funksiyasının yerinə yetirilməsinə istiqamətlənən nəzarət fəaliyyətlərinin (tədbirlərinin) təşkili və konkret ifadə üsullarıdır.

I.A.Belobjetski nəzarət tədbirlərinin təşkili və ifadə üsullarına (maliyyə nəzarətinin formalarına) ilkin, cari və sonradan nəzarəti aid edir. Onun fikrincə, qeyd olunan təsnifatın əsasını nəzarətin həyata keçirilmə zamanından asılı olaraq maliyyə nəzarətinin təşkili və konkret ifadəsinin ayrı ayrı tərəfləri təşkil edir.

3. Hər bir ölkənin dövlət maliyyə nəzarəti sisteminin dövlətin inkişafının tarixi aspektləri ilə bağlı olan özünəməxsus xüsusiyyətləri, əlamətləri vardır. Ayrı-ayrı ölkələrdə artıq xeyli vaxdır ki, dövlət maliyyə nəzarəti orqanları demokratık cəmiyyətin ayrılmaz tərkib hissəsi və ictımai maliyyə vəsaitlərinin idarə edilməsinin məcburi elementi kimi çıxış edirlər

Xarici ölkələrdə dövlət maliyyə nəzarəti müxtəlif modellər əsasında qurulur, lakin ümumilikdə bu sistemin inkişafı üçün qeyri –mərkəzləşdirmə meylləri və auditin və ya onun elementlərinin nəzarət fəaliyyətinin müstəqil bir qolu kimi ayrılması xarakterik olur.

Bugünkü gün inkişaf etmiş ölkələrdə dövlət maliyyə nəzarəti orqanlarının böyük əksəriyyəti maliyyə-büdcə nəzarətinin aparılmasının ən mühüm üsullarından biri kimi səmərəlilik auditindən geniş istifadə edirlər. Onun başlıca məqsədini mövcud dövlət resurslarının istifadəsi zamanı sosial əhəmiyyətli nəticəni müəyyən etmək təşkil edir.

Ümumiyyətlə səmərəlilik auditi dövlət (bələdiyyə) vəsaitlərindən istifadənin iqtisadi və sosial nəticələrini üzə çıxarmağa imkan verir və bu vəsaitlərdən istifadənin səmərəliliyinin qiymətləndirilməsi məqsədi ilə aparılır.

Onu da qeyd etmək yerinə düsər ki, hazırda inkişaf etmiş ölkələrin ali maliyyə nəzarəti orqanlarının həyata keçirdiyi yoxlamaların ümumı sayında adətən səmərəlilik auditinin payı 50 faizdən çox olur.

Lakin keçmiş sovet respublikalarında həyata keçirilən nəzarət tədbirlərində səmərəlilik auditinin payı xeyli aşağıdır. Məsələn, Rusiya Federasiyasının Hesablama Palatasının apardığı yoxlamaların ümumi sayında səmərəlilik auditinin payı cəmi 4 faiz təşkil edir.

Respublikamız barədə zəruri məlumatlar olmadığı üçün konkret bir söz söyləmək çətinlik yaradır. Ancaq onu əminliklə demək olar ki, Azərbaycanda indiyədək dövlətin nəzarət orqanları tərəfindən həyata keçirilən yoxlamalarda əsas diqqət büdcə vəsaitlərinin qanuni və tam xərclənməsinə yönəldilir və bu da xaric ölkələrdə aparılan səmərəlilik auditindən xeyli fərqlənir.

4. Müasir şəraitdə maliyyə nəzarətinin strukturunda mühüm tərkib hissələrindən biri də büdcə nəzarətidir. O, dövlət idarəetməsinin əsas funksiyalarından biri və istənilən dövlətin iqtisadi sisteminin səmərəli fəaliyyət göstərməsinin vacib şərtidir.

Müasir şəraitdə büdcə nəzarətinin təşkili və həyata keçirilməsində qanunverici hakimiyyət orqanları əsas rol oynayırlar. Dünyanın əksər ölkələrinin qanunvericilik orqanları büdcə nəzarətini birbaşa deyil, mövcudluğu konstitusiya ilə təsbit olunan xüsusi yaradılmış maliyyə nəzarəti orqanları vasitəsilə həyata keçirirlər.

Azərbaycanda belə bir konstitusion orqan Azərbaycan Respublikasının Hesablama Palatasıdır və o, məhz büdcə sahəsində nəzarəti həyata keçirmək məqsədilə yaradılmışdır.

Onu da qeyd edək ki, son illərdə büdcə sahəsində nəzarəti həyata keçirən orqanların apardıqları yoxlamalarda xərclər smetasında nəzərdə tutulmyan və funksional fəaliyyətə aid edılməyən istiqamətlərə vəsaitin yönəldilməsi, malların (iş və xidmətlərın) satın alınması zamanı mövcud qanunvericılıyin tələblərinə riayət olunmaması, malların, işlərin,xidmətlərin dəyərinin əsassız olaraq artırılması, əməyin ödənillməsi sahəsində tarif və ixtisas dərəcələrinın, habelə əlavələrin düzgün hesablanmaması,dövlət qulluğu sahəsində mövcud normativ-huquqi aktların tələblərinə riayət olunmaması ilə baglı nöqsanlar üstünlük təşkil etmişdir.

Ötən ilin ilk yarım illiyində Dövlət Maliyyə Nəzarti Xidməti tərəfindən reallaşdırılan 23 nəzarət tədbiri ilə məhz yuxarıdakı nöqsanların nəticəsi kimi 3077,9 min manat məbləgində artıq və əsassız ödənişlərin həyata keçirildıyi askarlanaraq həmin məbləğin 1540,3 min manatının budcəyə bərpası təmin edilmiş, 1443,1 min manatıq mənimsəmə hallarına görə isə yoxlama materialları aidiyatı orqanlara göndərilmisdir.

Hesablama Palatası tərəfindən isə anoloji dövrdə həyata keçirilən 17 nəzarət tədbiri ilə qeyd olunan nöqsanlarla bağlı ümumilikdə 232 halda nöqsan muəyyən edilmiş və 2,2 mln. manat məbləğində vəsaitin dovlət büdcəsinə, 87,2 min manat

məbləgində vəsaitin isə büdcədənkənar fondların büdcəsinə bərpası təmin edilmişdir (www.sai.gov.az).

5. Hazırki mürəkkəb iqtisadi şəraitdə dövlətin neft gəlirlərinin azaldığı, vergilərin büdcənin gəlir hissəsinin formalaşdırılmasındakı rolunun artdığı bir şəraitdə vergi nəzarətinin əhəmiyyəti dəfələrlə artır.

Vergi nəzarəti – vergi ödəyicilərinin, vergi agentlərinin müvafiq qanunvericiliyin tələblərinə riayət etmələrini müəyyən etmək məqsədilə səlahiyyətli orqanların həyata keçirdiyi dövlət nəzarətinin bir növüdür.

Vergi nəzarəti yalnız vergi ödəyicilərinə nəzarəti deyil, həm də iqtisadiyyatda vergi axınlarının qanuniliyi və rasionallığının yoxlanılması və monitorinqi üzrə fəaliyyətləri də əhatə edir.

Səyyar vergi yoxlamaları hazırda vergi nəzarətinin ən effektiv forma və metodlarından sayılır. Bu yoxlamalar vergi ödəyiciləri ilə sıx əlaqəni təmin edir, onlar haqqında daha səhih məlumatlar əldə etməyə imkan verir və vergi hüquq pozmalarının, vergidən yayınma hallarının qarşısının alınmasına istiqamətlənir.

Lakin bütün bunlara baxmayaraq bu yoxlamaların sayı son illərdə əvvəlki illərlə müqayisədə əhəmiyyətli dərəcədə (3dəfəyədək) azalmışdır. Bu əsasən 2021-ci ilədək ölkədə illik dövriyyəsı 120 min manatan az olan sahibkarlıq subyektlərində keçirilən yoxlamalara qoyulan moratorium ilə əlaqadardır. Rəsmi məlumatlara əsasən keçən il ölkə üzrə cəmi 1400 səyyar vergi yoxlaması keçirilmişdir ki, bu da hər 300 vergi ödəyicisindən birinın yoxlanılması deməkdir (http://www.taxes.gov.az).

Son illərdə ölkədə aparılan səyyar vergi yoxlamalarının sayında bir neçə dəfə azalma müşahidə olunsada, bu yoxlamaların yekunları üzrə vəziyyətə təsir etməmiş, daha doğrusu hesablanmış əlavə vəsait, tərbiq edilmiş maliyyə sanksiyaları və cərimələrin həcmi yoxlamaların azalmasına baxmayaraq dəyişməz olaraq qalmışdır. Bu isə ölkədə hələ də vergi hüquq pozmaları və vergidən yayınma hallarının kifayət qədər olmasını göstərir.

Vergi qanunvericiliyinin pozulması, vergidən yayınma hallarının kifayət qədər olması ölkədə vergi nəzarətinin təkmilləşdirilməsi zərurətini də ortaya çıxarır və bu baxımdan aşağıdakıların həyata keçirilməsi təklif olunur:

-vergi cinayətləri və hüquq pozmalarının törədilməsinə görə məsuliyyətin sərtləşdirilməsi;

-elektron audıtin əhatə dairəsinin genişləndirilməsi və bu cür yoxlamaların daha da təkmilləşdirilməsi;

-vergi yoxlamalarının keyfiyyətinin, səmərəliliyinin artırılması məqsədılə vergi ödəyicilərinin risk meyarları əsasında qruplaşdırılmasına imkan yaradan risk qiymətləndirmə sisteminin hazırlanması;

-vətəndaşların vergi mədəniyyətinin artırılması istiqamətində tədbirlərin həyata keçirilməsinin davam etdirilməsi;

-bütün kateqoriyalı vergi ödəyiciləri üçün bərabər şəraitin yaradılması;

-vergi orqanları əməkdaşlarının bilik və bacarıqlarının artırılması, təkmilləşdirilməsi üzrə tədbirlərin hazırlanması və reallaşdırılması.

6. Müasir şəraitdə dövlət maliyyə nəzarətinin səmərəliliyinin qiymətləndirilməsi kifayət qədər mürəkkəb bir məsələdir və ona münasibət birmənalı deyil.

Dövlət maliyyə nəzarətinin səmərəliliyinin qiymətləndirilməsi həm dövlət maliyyə nəzarətinin ayrı-ayrı tədbirlərinin, həm də ayrı-ayrı dövlət maliyyə nəzarəti orqanlarının fəaliyyətlərinin keyfiyyət parametrlərini nəzərdən keçirməyə imkan verir.

Əksər hallarda dövlət maliyyə nəzarəti orqanlarının fəaliyyətinin səmərəliliyi aşkar edilmiş pozuntuların miqyası, bərpa edilmiş vəsaitlərin, eləcə də tətbiq edilmiş cərimə və sanksiyaların həcmi ilə ölçülür. Bu da bir daha dövlət maliyyə nəzarətinin səmərəliliyinin qiymətləndirilməsinə vahid və hamı tərəfindən qəbul edilən yanaşmanın formalaşdırılmasının zəruriliyini göstərir.

Istənilən fəaliyyətin, o cümlədən nəzarət fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi metodikasının hazırlanması olduqca çətin bir məsələdir. Ümumi qəbul edilmiş fikrə əsasən "səmərəli nəzarət" müasir nəzarət

texnologiyaları əsasında həyata keçirilən real, effektiv, nəticəli, resurslara qənaət edən nəzarəti bildirir.

Dövlət maliyyə nəzarəti orqanlarının fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsində hazırda beş əsas meyardan (kriteriyadan) istifadə olunması məqsədəuyğun hesab edilir:

-məhsuldarlıq;

-təsirlik;

-qənaətlik;

-intensivlik;

-dinamiklik.

7. Son dövrlərdə respublikada mütərəqqi və işlək dövlət maliyyə nəzarəti sisteminin formalaşdırılması istiqamətində xeyli işlər görülsədə, bu sahədə hələ də bir çox problem və çatışmazlıqlar qalmaqdadır.

Ümumiyyətlə hazırda Azərbaycanda maliyyə nəzarəti sahəsində mövcud olan problemləri iki qrupa ayırmaq olar:

-ölkədə maliyyə nəzarətinin həyata keçirilməsini tənzimləyən normativ-hüquqi baza ilə bağlı olan problemlər;

-maliyyə nəzarəti orqanlarının fəaliyyətlərindəki nöqsan və çatışmazlıqlarla bağlı olan problemlər.

Maliyyə nəzarətinin həyata keçirilməsini tənzimləyən normativ-hüquqi baza ilə əlaqədar olan problemlərin ilk sırasında maliyyə nəzarəti üzrə qanunun və ya konsepsiyanın olmaması yer alır.

Maliyyə nəzarətinin normativ-hüquqi bazası ilə əlaqədar olan və dövlət maliyyə nəzarətinin effektivliyini azaldan problemlərdən biri də maliyyə-büdcə qanunvericilıyinin pozulmasına görə nəzərdə tutulan inzibati tədbirlərin lazımi qədər təsirli olmaması, tətbiq edilən cərimələrin məbləğinin az olması, bəzi istiqamətlər (satınalmalar) üzrə qanunvericiliyin tələblərinin pozulmasına görə isə ümumiyyətlə hər hansı bir cəza tədbirinin nəzərdə tutulmamasıdır.

Maliyyə nəzarəti sahəsindəki problem və çatışmazlıqların sırasına maliyyə nəzarəti orqanlarının hazırda nəzarətin keçirilməsinə dair vahid standart və qaydalarının işlənib hazırlanmamasını da aid etmək olar.

Müasir mərhələdə dövlət maliyyə nəzarətinin problemlərindən bir digəri nəzarət orqanları arasında qarşılıqlı əlaqələrin zəif təşkili və fəaliyyətlərinin uzlaşdırılmamasıdır.

Azərbaycanın maliyyə nəzarəti sıstemində tam aradan qaldırılmayan təkrarcılıq və paralel yoxlamalar da malıyyə nəzarətinin effektivliyinə təsir edən və bu sistemdə var olan problemlər sırasına aid oluna bilər.

8. Azərbaycanda dövlət maliyyə nəzarətinin təkmilləşdirilməsi ölkə iqtisadiyyatının davamlı inkişafının təmin edilməsi baxımından olduqca mühüm əhəmiyyət kəsb edir.

Respublikamızda dövlət maliyyə nəzarətinin təkmilləşdirilməsi üçün aşağıdakıların həyata keçirilməsini məqsədəmüvafiq hesab edirəm:

-nəzarət fəaliyyətinin qanunvericilik bazasının formalaşdırılması və təkmilləşdirilməsi üçün əsas olacaq dövlət maliyyə nəzarətinin konsepsiyasını hazırlamaq;

- dövlət maliyyə nəzarətinin konsepsiyası əsasında qısamüddətli və ortamüddətli dövr üçün dövlət maliyyə nəzarətinin ümumi inkişaf strategiyasını qəbul etmək;

- ümumi və daxili standartların qəbul edilməsi yolu ilə dövlət maliyyə nəzarətinin standartlaşdırılması prosesini başa çatdırmaq;

-nəzarət orqanlarının fəaliyyət istiqamətləri və tabeçiliyindən asılı olmayaraq, nəzarət orqanlarının vahid informasiya bazasını yaratmaq;

- dövlət hakimiyyəti strukturuna müvafiq olaraq dövlət maliyyə nəzarəti orqanlarının funksiyalarını məhdudlaşdırmaq;

- təqvim ilinin əvvəlinə iş planlarının razılaşdırılması yolu ilə nəzarət tədbirlərinin təkrarlanmasının qarşısını almaq;

-dövlət maliyyə nəzarəti orqanları arasında qarşılıqlı əlaqələri inkişaf etdirmək və onların fəaliyyətlərinin uzlaaşdırılmasına nail olmaq;

- nəzarət işlərini həyata keçirən mütəxəssislərin hazırlanması, peşəkarlıqlarının artırılması yolu ilə dövlət maliyyə nəzarətinin kadr təminatını ən yüksək səviyyəyə çatdırmaq;

- beynəlxalq əməkdaşlığı gücləndirmək, bu sahədə fikir və təcrübə mübadiləsi aparmaq.

Dövlət maliyyə nəzarətinin təkmilləşdirilməsi üzrə təklif olunan bu istiqamətlərin reallaşdırılması Azərbaycanda dövlət maliyyə nəzarətinin bütöv sistem kimi fəaliyyətini təmin etməyə, eləcə də dövlətin maliyyə resurslarının idarə edilməsini keyfiyyətcə yeni səviyyəyə qaldırmağa imkan verəcək, həmçinin maliyyə təhlükəsizliyinin təmin olunmasında dövlət maliyyə nəzarətinin rolunu daha da gücləndirəcəkdir.

## Ədəbiyyat siyahısı

### Azərbaycan dilində


1. "Hesablama Palatası haqqıında" AR Qanunu – 29 iyun 2018-cı il ;
2. «Audıitor xidməti haqqında» Azərbaycan Respublikası Qanunu 1994-ci il 16 sentyabr;
3. "Valyuta tənzimi haqqında" AR Qanunu 21 oktyabr 1994-cu il;
4. Azərbaycan Respublikası Inzibati Xətalar Məcəlləsi -2015-ci il;
5. AR Vergi Məcəlləsi – 11 iyul 2000-ci il;
6. D.Bagırov, M.Həsənli, 2011 "Maliyyə" Dərs vəsaiti


### Xarici dildə


1. S.V.Barulin, E.A.Yermakova, V.V.Stepanenko, 2007 "Vergi menecmenti" Dərs vəsaiti -272 səh.
2. Malsev V.A. 2008 "Maliyyə hüququ" Moskva.
3. Voronin Y.M., 2005 "Dövlət maliyyə nəzarəti: nəzəri və təcrübi məsələlər";
4. L.Y.Abramçik, 2002 "Belorusiya Respublikasının maliyyə hüququ" – Qrodno
5. M.V.Romanovskiy və O.V.Vrublevskinin redaktorluğu ilə, 2006 "Maliyyə, pul tədavulü və kredit" Dərslik Moskva;
6. Şidlovskaya M.S., 2001 "Maliyyə nəzarəti və audit";
7. İ.D.Maskulyak, 2003 "Dövlət və bələdiyyə maliyyəsi" Moskva, səh-593.
8. Kroxina Y.A., 2008 "Rusiyanın maliyyə hüququ" Dərslik. M.:Norma, 780 səh.
9. Грачева Е.Ю., 2002 «Государственныи финансовый контроль в Российской Федерации:состояние, проблемы и перспективы законодателного обеспечения: Материалы научно-практическои конференции. стр.-333.

10. Бахрах Д.Н., 2011 Административное прааво России: Учебник. – 6-е изд.,перераб. и доп. М.- стр.356
11. Н.И. Химичева, 2008, Финансовое право: Учебник /– 768 с
12. И. М. Куликова, Т.Ф. Рябовой, 2011 Глобальная экономика. Энциклопедия.
13. Родионова В. М., Шлеиников В. И., 2002 Финансовый контролъ: Учебник. М.: ФБК- Пресс.
14. Кондрат Е.Н., 2012- № 1. - С. 103-109. Государственный финансовыи контроль: основополагаюшие начала (принципы) / Юридическая наук а: история и современность.
15. А.М.Годин, В.П. Горегляд, И.В.Подпорин, 2010 «Бюджетная система РФ: Учебник-9-е издание М.: «Дашков и К» - 628с.
16. Степашин С.В., 2007, «Аудит эффективности как важнеишая форма государственного финансового контролья»

## İnternet resursları

1. http://www.maliyye.gov.az/
2. https://www.trend.az/business/economy/2998367.html
3. http://www.taxes.gov.az
4. http://sai.gov.az/1/nesr/27
5. Мировой опыт организации государствнного и муниципального финансовогоконтроля и возможность его применения в России[Электронный ресурс] — http://www.juristlib.ru/book_6750.html
6. Комягин Д.Л., 2017 «Бюджетное право» Учебнйк. - М.: ВШЭ.
7. http://www.auditfin.com/fin/2003/4/fin_2003_41_rus_01_01.pdf
8. https://articlekz.com/article/8091
9. https://cyberleninka.ru/article/n/аудит-эффективности-современые-проблемы-и-пути-их-рещения

10.http://www.center-bereg.ru/b5187.html
11.http://base.garant.ru/12125267/#friends
12.https://online.zakon.kz/Document/?doc_id=30077180
13.http://economics.studio/finansistam/soderjanie-znachenie-finansovogo-89582.html
14.https://cyberleninka.ru/artıcle/n/развитие-государственного-финансвого-контроля-в-современных-условиях
15.https://cyberleninka.ru/article/n/suschnost-i-problemy-otsenki-effektivnosti-gosudarstvennogo-finansovogo-kontrolya
16.https://cyberleninka.ru/article/n/kriterii-otsenki-effektivnosti-gosudarstvennogo-finansovogo-kontrolya-za-gosudarstvennymi-vneshnimi-zaimstvovaniyami-rossii
17.https://cyberleninka.ru/artıcle/n/оценка-эффективности-государственого-финансового-контроля-в -России-перспекттивы-его-развития
18.https://cyberlenınka.ru/article/критерии-и-показтели-оценки-эффективности-государственного-финансового-кантроля
19.https://moluch.ru/archive/90/18832/
20.http://www.studyi.ru/economics/finance/topic.php?id=puti_sovershenstvovanija_finansovogo_kontrolya_v_rossii
21.http://www.studyi.ru/economics/finance/
22.http://www.juristlib.ru/book_6750.html

Cədvəllərin siyahısı


| | | |
|---|---|---|
| Cədvəl 1. | Maliyyə nəzarətinin təsnifat əlamətləri ........................................ | 27 |
| Cədvəl 2. | Inkişaf etmiş ölkələrdə maliyyə nəzarətinin təşkili ....................... | 30 |
| Cədvəl 3. | Dövlət maliyyə nəzarətinin yaranma və inkişaf mərhələləri ........ | 32 |
| Cədvəl 4. | Azərbaycanın və digər ölkələrin dövlət maliyyə nəzarəti sisteminin muqayisəli cədvəli ...................................................... | 33 |
| Cədvəl 5. | Maliyyə auditi və səmərəlilik auditi arasındakı fərqlər ................ | 35 |
| Cədvəl 6. | Xarici ölkələrdə səmərəlilik auditinin xarakteristikası .................. | 36 |
| Cədvəl 7. | Hesablama Palatası tərəfindən 2013-2017-cı illərdə bərpa edilmış vəsaitlər ......................................................................... | 44 |
| Cədvəl 8. | 2014-2016-cı illərdə ölkədə aparılan səyyar vergi yoxlamaları barədə məlumat ..................................................................... | 52 |
| Cədvəl 9. | Maliyyə nəzarəti orqanının fəaliyyətinin qiymətləndirilməsi üzrə meyarlar ............................................................................. | 57 |
| Cədvəl 10. | Dövlət maliyyə nəzarətinin təşkili problemləri və onların həlli yolları ............................................................................... | 62 |

Şəkillərin siyahısı


| | | |
|---|---|---|
| Şəkil 1. | Maliyyə nəzarətinin elementləri ........................................................ | 12 |
| Şəkil 2. | Maliyyə nəzarətinin vəzifələri ........................................................ | 13 |
| Şəkil 3. | Maliyyə nəzarəti subyektləri ........................................................ | 15 |
| Şəkil 4. | Maliyyə nəzarətinin təsnifatı ........................................................ | 17 |
| Şəkil 5. | Maliyyə nəzarətinin formaları ........................................................ | 19 |
| Şəkil 6. | Maliyyə nəzarətinin növləri ........................................................ | 21 |
| Şəkil 7. | Maliyyə nəzarətinin subyektlərdən asılı olaraq növləri ................... | 22 |
| Şəkil 8. | Dövlət maliyyə nəzarətinin geniş və dar mənada məzmunu ............ | 23 |
| Şəkil 9. | Dövlət maliyyə nəzarətnin vəzifələri ............................................... | 24 |
| Şəkil 10. | Dövlət maliyyə nəzarətinin vəzifələrinin həlli üçün zəruri olan tədbirlər ........................................................................................ | 25 |
| Şəkil 11. | Idarədaxili maliyyə nəzarətinin formaları, obyektləri və metodları .. | 26 |
| Şəkil 12. | Maliyyə nəzarətinin maliyyə fəaliyyətinin sferalarından asılı olaraq növləri ........................................................................................ | 28 |
| Şəkil 13. | Büdcə nəzarətinin formaları, obyektləri, növləri və metodları .......... | 39 |
| Şəkil 14. | Büdcə nəzarətini həyata keçirən strukturlar ...................................... | 40 |
| Şəkil 15. | Büdcə nəzarətinin növləri və orqanları ............................................. | 41 |
| Şəkil 16. | Büdcə nəzarətinin metodları və yekun sənədləri .............................. | 43 |
| Şəkil 17. | Vergi nəzarətinin həyata keçirilmə formaları .................................. | 48 |
| Şəkil 18. | Vergi nəzarətinin formaları ............................................................... | 49 |
| Şəkil 19. | Kameral vergi yoxlamalarının məqsədləri ...................................... | 50 |
| Şəkil 20. | Səyyar vergi yoxlamalarının keçirilməsi qaydaları ......................... | 51 |
| Şəkil 21. | Dövlət maliyyə nəzarətinin səmərəliliyi .......................................... | 55 |
| Şəkil 22. | Dövlət maliyyə nəzarətinin səmərəliliyinin qiymətləndirilməsi göstəriciləri və kriteriyaları ............................................................. | 56 |
| Şəkil 23. | Dövlət maliyyə nəzarətinin ümumi standartları .............................. | 63 |
| Şəkil 24. | Dövlət maliyyə nəzarətinin təkmilləşdirilməsi istiqamətləri ............ | 69 |